27_27 IYUl-QARA.qxd 8/8/2024 11:23 PM Page 1

UNİKAL

№28 (2210) 9 avqust 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# Böyük güclərin yeni oyunu:

## Ermənistan dövlətçiliyi qurban gedə bilər

Səh.9



## Yaqub Eyyubovun İngiltərədəki şirkətləri ilə bağlı müəmma

*Baş nazirin 1-ci müavini Yaqub Eyyubovun oğlu Orxan Eyyubov İngiltərənin Berkshire şəhərindəki şirkətlərindən birini bağlayıb. Bu barədə Azərbaycan KİV-lərində məlumat yayılıb. Bildirilir ki, Orxan Eyyubovun 75 faiz payla sahib olduğu və 2020-ci ilin noyabrında Britaniya Şirkətlər Evində qeydiyyatdan keçmiş "New Canada Limited" şirkəti (Qeydiyyat nömrəsi 13044330) bu ilin yanvarında ləğv edilərək reyestrdən çıxarılıb. "New Canada Limited" yenə Orxan Eyyubovun təsisçisi olduğu "New Canada Capital" LTD-nin törəmə müəssisəsi kimi fəaliyyət göstərib. Sənədlərə görə ləğv olunan şirkətin 25 faiz hissəsi...*

Səh.8

## "Bu kimi hallara qarşı sayıqlığımızı artırmalıyıq"



*Təcrübə göstərir ki, seçkilər zamanı ölkəmizin informasiya mühitinə kənardan yönləndirilən təhdidlər artır, informasiya manipulyasiyasının bütün formalarının sistemli şəkildə tətbiq edilməsi halları müşahidə olunur. İctimai rəyi çaşdırmağa, ölkəmiz haqqında mənfi rəy yaratmağa yönəlmiş bu kimi hallara...*

Səh.4

## Mikayıl Cabbarov yeni qərar verdi



*İqtisadiyyat Nazirliyinin Kollegiyası "İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnika, texnoloji avadanlıqlar və qurğuların, habelə xammal və materialların idxalına dair təsdiqedici...*

Səh.3

## Azərbaycançılıq ideyası xalqımızın milli birlik şüarına çevrildi



*Milli ideologiyalar xalqı yaşadan, birləşdirən əsas amillərdəndir. Uzun illərdir ki, Azərbaycan xalqı bir milli ideologiya ətrafında sıx birləşib. Bu azərbaycançılıq ideologiyasıdır. Hətta sərhədlər belə xalqımızın bu ideologiya ətrafında birləşməsinə mane ola bilmir.*

Səh.11

27_27 IYUl-QARA.qxd 8/8/2024 11:25 PM Page 2



# "Roza Zərgərli harada qaldığımı, nə yeyib-içdiyimi bilmir"

***Müğənni Roza Zərgərlinin övladlığa götürdüyü kiçik oğlu Jerard Qafarov pul istəməsi ilə bağlı yaranan müzakirələrə cavab verib.***

Bu barədə o, sosial media hesabında paylaşım edib. "Dilənçi deyiləm, sadəcə çətin anımda kiçik yardıma ehtiyacım var idi. Həyatımla bağlı bilib-bilmədən hər kəs fikir sahibidir. Hər kəs həyatımı görmək istədiyi kimi görür. Kimə görə əla yaşayıram, kimə görə avara. Mən də istədiyirdim ki, ali təhsil alım. Lakin yaşadığım çarəsizlik məni iş həyatına atdı. Namusumla hər işdə işləmişəm. Mən ən başda hər gün aldığım nəfəsə görə Allaha şükür edirəm. Sonra səhəri gün nəfəs alım deyə, mübarizə aparıram. Hər kəs düşünür ki, müğənni Roza Zərgərlinin oğludur, əla yaşayır. Öncəliklə nə mən, nə də qardaşım Corc Qafarov onun oğlu deyilik. Övladlığıyıq. Bizim anamız Leyla Qafarovadır. Onu da illər əvvəl xəstəlikdən itirdik. Bizi yaşadığı zaman uşaqlar evinə qoydu. Həyat onu elə hala saldı ki, "Azərbaycan gözəli" seçilən anam küçələrdə xəstəliyə tutuldu və rəhmətə getdi. Bizi də küçələrdə ölməyək deyə, uşaqlar evinə qoydu. Yoxsa, heç bir əsl ana övladlarından imtina etməz. Bizim anamız da etmədi.



Roza Zərgərli bizə bir qədər yardım edib. Başımın üstündə Allah var, yalan danışa bilmərəm. Bəli, bizə kömək edib. Lakin əgər övladlığa kimisə götürürsənsə, maddi yox, mənəvi olaraq onlarla maraqlanmalısan. Harada qaldığımı, nə yeyib-içdiyimi bilmir. Ona haqq qazandırmazdan əvvəl həyatıma bir dəfə də olsa, mənim tərəfdən baxın. Hələ danışmadığım çox şey var. Bunu oxuyun kifayətdir" deyə, Jerard bildirib.

Qeyd edək ki, Jerardın qardaşı aktyor Corc Qafarovdur. R.Zərgərlinin Bənövşə adlı daha bir qızı var.

# "Bu dəfə atam toyumuzda iştirak etdi" - Emin Ağalarov



***Xalq artisti Emin Ağalarov "Fametime TV"yə müsahibəsində həyat yoldaşı Alyona Qavrilova ilə ailə qurmasından danışıb.***

Sənətçi Alyona ilə bu ilin mayında rəsmi nikah bağladığını təsdiqləyib.

"Biz çoxdan toyu necə edəcəyimizi haqqında düşünürdük. Münasibətlərimizi rəsmləşdirməyimizin şərəfinə tarix seçdik, imza atdıq və nahar etdik. Təxminən 60-70, bəlkə də ən yaxın 80 nəfər var idi. Çox yaxın qohumlarımız iştirak etdi. Bu dəfə atam bizi təbrik etməyə gəldi. İlk toyumuz möhtəşəm keçdi, sonra ayrıldıq. İlk toyumuzda rəsmi nikahımız yox idi. Bunun üçün müxtəlif səbəblərimiz var idi. Sonra ayrıldıq və bizim Aifina adlı qızımız oldu. Yenidən bir araya gəldik. Sonra qərara gəldik ki, nikahımız qanuni olmalıdır. Bu ilin mayında evləndik və restoranımda yaxınlarımızla yığışdıq. Gözəl axşam idi. Həmkarlarım çıxış etdilər. Həyat yoldaşımla xoşbəxtəm. Bizim bir tərəfdən uyğun gəlməyən xarakterimiz, digər tərəfdən harmoniyamız var. Çünki Alyona çox sakitdir. Mən evə gələndə məni sakitləşdirməyi bacarır. Alyonanı çox sevirəm, 10 ildən çoxdur ki, bir yerdəyik. Mən ona yenidən evlənmə təklif etdim. Ona dəfələrlə evlilik təklifi etdim. Amma o dərhal razılaşmadı, çünki iki dəfə eyni gəmiyə ayaq basmaq istəmədiyini söylədi. Cavab verdim ki, mən elə gəmi deyiləm, sən istənilən sayda oraya addım ata bilərsən. Neçə il ara-ara ona evlilik təklifi edirdim, amma o, bundan imtina edirdi. O, Moskvada yaşayır. Ara-ara buraya qızımızla birgə gəlir. Bu, Afinanın tətillərindən asılıdır. Onun tətili olanda mən onları razı salıram ki, buraya gəlsinlər. Qışda bu az olur. Həm də Alyona təyyarə ilə uçmaqdan qorxur" deyə, Emin bildirib.

Müğənni Alyonanın böyük oğlu Rüstəmlə bağlı sualları da cavablayıb: "Alyonanın Rüstəm adlı böyük oğlu da var. O, Avropada yaşayır. Arabir gəlir. Mənim övladlarım bu yaxında Türkiyədə idilər. Rüstəm də onlarla idi. Tətillər imkan verir ki, biz bütün uşaqlarımızla birgə bir yerə toplaşaq. Mənim ən çox həzz aldığım an bütün övladlarımızla bir masa arxasında əyləşib yemək yediyimiz vaxtdır. Rüstəmlə əkizlərim demək olar eyni yaşdadırlar. Amma onların elə yaş dövrüdür ki, fərqli maraqları var. Qız dostları var, harasa getməyi özləri planlaşdırırlar. Qürurverici haldır ki, balaca olanda gəzdirdiyim uşaqlarım indi həmkarlarıma çevriliblər. Ötən yay yanımda təcrübə keçməyə gəlmişdilər".



# "Məni sevginlə aydınlatdın" - Sevdadan həyat yoldaşına

***Müğənni Sevda Yahyayeva həyat yoldaşı Zakir Bayramovla bağlı paylaşım edib.***

Axşam.az xəbər verir ki, ifaçı bu gün evliliklərinin dördüncü ildönümü olduğunu vurğulayıb.

Sevda həyat yoldaşı ilə fotosunu yayımlayaraq "Dünyama sonsuz işıq oldun. Məni sevginlə aydınlatdın. Bir ömür səninlə birlikdə olmaq istəyirəm. 2020.08.08. 2024.08.08." deyə, yazıb.

Qeyd edək ki,cütlünün Ayla və Aida adlı iki qız övladı var.

# "Həmkarlarım canlı oxumaqdan qaçırlar" - Namiq Qaraçuxurlu

***Müğənni Namiq Qaraçuxurlu həmkarları ilə bağlı diqqət çəkən açıqlama verib.***



"Unikal" olay-a istinadən bildirir ki, bu haqda sənətçi qonaq olduğu "Xəbər - ətər" verilişində danışıb. Qaraçuxurlu bildirib ki, sənət yoldaşlarından fərqli olaraq o, hər zaman canlı ifalara üstünlük verir:

"Konsertlərimdə şou tərəfini artıq düşünmürəm. Nələrsə edim, misal üçün - göydən düşüm, yerdən çıxım və sairə. Təbii ki, bunlarda gözəldir və lazımlıdır. Amma əsas konsertlərimin gücü ondadır ki, tamaşaçılar mənimlə birgə canlı mahnılarımı oxuyur. Çox zaman həmkarlarım canlı oxumaqdan qaçırlar. İstirahət mərkəzlərinə çıxış etmək üçün dəvətlər alanda deyirəm ki, elə edin, orada musiqiçilər məni müşaiət etsinlər və canlı oxuya bilim. Mənim üçün ən böyük qismət və hədiyə insanların mahnılarımı əzbər bilməsidir".

# Samirə uzun müddət sonra kamera qarşısında

***Müğənni Samirə ƏliMəryəm uzun müddət sonra kamera qarşısına keçib.***

İfaçı uzun qara libasda fotosessiya etdirib.

Samirə fotolarını sosial media hesabında yayımlayıb.

## Media subyektlərinin seçkilərdə iştirakına dair müşavirə keçirilib



***Sentyabrın 1-nə təyin olunmuş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar müxtəlif statuslu seçki iştirakçılarını əhatə edən layihələr seçkilərə rəsmən start veriləndən ardıcıl, sistemli və intensiv şəkildə davam edir.***

Bu barədə “Unikal”a Mərkəzi Seçki Komissiyasından (MSK) məlumat verilib. Bildirilib ki, genişmiqyaslı proqram çərçivəsində növbəti layihə - Mərkəzi Seçki Komissiyası, Medianın İnkişafı Agentliyi, Audiovizual Şura və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə avqustun 8-də “Hyatt Regency Baku” otelində geniş müşavirə keçirilib. Tədbir bərabər seçkiqabağı təşviqat imkanları və media subyektlərinin Milli Məclisə seçkilərdə fəaliyyətinin əsaslarına həsr olunub.

Müşavirə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, Audiovizual Şuranın sədri İsmət Səttarov və Mətbuat Şurasının sədri Rəşad Məcidin açılış nitqləri ilə başlayıb. Çıxışlar zamanı seçkiləri mediasız təsəvvür etməyin qeyri-mümkün olduğu, medianın seçkilərdə azad və sərbəst şəkildə iştirak etdiyi, ictimaiyyətin məlumatlandırılmasına mühüm töhfələr verdiyi vurğulanıb. Diqqətə çatdırılıb ki, qanunvericilik seçki prosesində aşkarlığın və şəffaflığın təmin olunmasında, seçkiqabağı təşviqat mərhələsində, o cümlədən səsvermə günü öz peşə fəaliyyətini yerinə yetirərkən media mənsubları üçün hüquqlarla yanaşı, vəzifə və məsuliyyətlər də müəyyən edib. Buna görə də Seçki Məcəlləsinin və müvafiq qanunvericiliyin tələblərinə dəqiqliklə riayət olunmalıdır.

Açılış nitqlərindən sonra Mərkəzi Seçki Komissiyasının üzvləri Milli Məclisə seçkilərdə seçkiqabağı təşviqata dair ümumi tələblər, təşviqat subyektləri, onların hüquq və vəzifələri, ödənişli və ödənişsiz əsaslarla aparılan təşviqat prosesində media subyektlərinin rol və vəzifələrini əhatə edən təqdimatlarla çıxış ediblər.

Aparıcı media subyektlərinin rəhbərləri və nümayəndələrinin bilavasitə iştirakı ilə keçirilən tədbirdə seçki prosesinin ictimailəşdirilməsi, aşkarlığın və şəffaflığın təmin olunması, habelə seçki prosesinin müxtəlif mərhələlərində peşəkar media fəaliyyətinin təşkili barədə dolğun məlumat verilib, mövzular ətrafında fikir mübadiləsi və müzakirələr aparılıb.

Media subyektlərinin Milli Məclisə seçkilərdə sərbəst fəaliyyətinin daha da təkmilləşdirilməsinə və məlumatlılığının artırılmasına hədəflənən müşavirə, jurnalistləri maraqlandıran suallara aydınlıq gətirildikdən sonra öz işini yekunlaşdırıb.

## Laçında itkin düşərək həlak olan hərbçi Ağdamda dəfn edilib

***2022-ci il martın 3-də Laçın rayonunda yüksək dağlıq və çətin relyefli ərazidə itkin düşmüş Azərbaycan Ordusunun əsgəri Məmmədov Fərid Əjdər oğlunun nəşi Ağdam rayonunda dəfn olunub.***

”Unikal” xəbər verir ki, Quzanlı qəsəbəsində Ağdam Dram Teatrının qarşısında rayon sakinlərinin, Ağdam Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərlərinin və əməkdaşlarının, ictimaiyyət nümayəndələrinin iştirakı ilə vida mərasimi keçirilib. Cənazə namazı qılınaraq şəhidlərimizin ruhuna dualar oxunub.

Vida mərasimindən sonra Fərid Məmmədovun nəşi Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında yaylım atəşi altında torpağa tapşırılıb. Tabuta bükülmüş Azərbaycanın üçrəngli dövlət bayrağı atasına təqdim edilib.

# Yaqub Eyyubovun İngiltərədəki şirkətləri ilə bağlı müəmma

### "New Canada Limited"in bağlanması və reyestrdən çıxarılması ortaya suallar çıxarıb

***Baş nazirin 1-ci müavini Yaqub Eyyubov oğlu Orxan Eyyubov İngiltərənin Berkshire şəhərindəki şirkətlərindən birini bağlayıb. Bu barədə Azərbaycan KİV-lərində məlumat yayılıb.***

Bildirilir ki, Orxan Eyyubovun 75 faiz payla sahib olduğu və 2020-ci ilin noyabrında Britaniya Şirkətlər Evində qeydiyyatdan keçmiş ”New Canada Limited” şirkəti (Qeydiyyat nömrəsi 13044330) bu ilin yanvarında ləğv edilərək reyestrdən çıxarılıb.



”New Canada Limited” yenə Orxan Eyyubovun təsisçisi olduğu ”New Canada Capital” LTD-nin törəmə müəssisəsi kimi fəaliyyət göstərib. Sənədlərə görə ləğv olunan şirkətin 25 faiz hissəsi Orxan Eyyubovdan 3 yaş böyük olan ingilis xanım Cennifer Marie Makdonalda, digər 25 faiz isə onun atası Con Makdonalda məxsus olub.

O da bildirilir ki, ”New Canada Capital” LTD-nin ötən ilki maliyyə sənədlərinə əsasən aktivlərinin həcmi 15 milyon funt-sterlinqdən artıq olub.

Xatırladaq ki, yerli media Yaqub Eyyubovu xaricdə ən böyük biznesə malik məmurlar sırasında göstərir. Bir neçə il öncə onun Kanadadakı klinikasının bağlandığı xəbər verilmişdi. Belə ki, bu ölkənin məşhur vergi və biznes konsaltinq şirkəti MNP LLP Orxan Eyyubovun müraciəti əsasında iflas prosesinə start vermişdi. Həmin vaxt sənədlərə əsasən onun sahibi olduğu klinikanın 1 milyon dollara yaxın zəmanətsiz borcu ortaya çıxmışdı. Lakin sonradan məlumat yayıldı ki, şirkət bağlanmayıb və hazırda aktiv statusdadır.

İndi isə Y.Eyyubovun İngiltərədəki ailə şirkətlərindən birinin bağlanmasının səbəbləri məlum deyil. Hətta digər şirkətlərin də bağlanacağına dair iddialar dolaşır.

Deyilənlərə görə, Cavanşir Feyziyevin Britaniya paytaxtı Londonda yaşadıqları burada biznes sahibi olan Azərbaycan məmurlarını təlaşlandırıb və onlar oxşar situasiya ilə üzləşəcəklərindən çəkinirlər.

Yada salaq ki, son olaraq bu ilin fevralında Böyük Britaniya Ali Məhkəməsi deputat Feyziyevin Londondakı 22 mülkünə həbs qoyulması barədə qərarı açıqlamışdı; qərarda bildirilirdi ki, deputat və həyat yoldaşının bu mülkləri “qeyri-qanuni yollarla əldə edilən gəlir” vasitəsilə aldıqlarına dair şübhələr var.

Beynəlxalq medianın əldə etdiyi sənədlərə görə, 39.5 milyon funt (təxminən 85 milyon AZN) dəyəri olan mülklər Ali Məhkəmənin 2023-cü ilin iyunundakı qərarından sonra dondurulmuşdu.

Həmin vaxt Feyziyev bununla bağlı şərh verməmişdi, lakin onun vəkili Böyük Britaniya Ali Məhkəməsindəki prosesin gedişində Milli Cinayət Agentliyinin (NCA) lazımi prosedurları aparmadığını iddia edərək mülklərin dondurulması qərarını ləğv etdirməyə çalışmışdı. O demişdi ki, “hər hansı mülkün qeyri-qanuni yolla əldə edilməsi yaxşı mübahisələndiriləcək hal deyil”.

Bundan əvvəl isə Böyük Britaniya Milli Cinayət Agentliyi Feyziyev ailəsi barədə bank hesablarında milyonlarla funt olduğuna görə araşdırma başlatmışdı. Agentlik bildirmişdi ki, həmin pulların mənbəyi 2017-ci ildə aşkarlanan beynəlxalq pulyuma sxemi olub.

2022-ci ildə Böyük Britaniyada Feyziyevin həyat yoldaşı, oğlu Orxan və qardaşı oğlu Elmana məxsus hesablardakı 5,6 milyon funt (təxminən 12 milyon AZN) pulu dondurmuşdu.

Maraqlıdır ki, bu günlərdə keçmiş nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov da Britaniyadakı əmlakı və biznesi ilə bağlı gözlənilmədən gündəmə gəlmişdi. Öncə beynəlxalq mətbuatda yayılan məlumatlar sonradan yerli KİV-də də geniş işıqlandırılmışdı. Məlumatlardan belə aydın olurdu ki, 43 yaşlı Anar Məmmədov Amerika qızartma toyuq zənciri KFC-nin İngiltərədə françayzinqinə milyonlarla dollar xərcləyib. Bildirilirdi ki, KFC şəbəkəsinə yatırımları A.Məmmədovun Britaniyadakı biznes və daşınmaz əmlak portfoliosunun - əmlak çantasının bir hissəsidir. “Transparency International UK” təşkilatının Britaniya torpaq reystrindən əldə etdiyi qeydlərə görə, bu portfolioya Londonun ən bahalı küçələrində toplam dəyəri 30 milyon dolları aşan daşınmaz əmlak da daxildir. O, bu daşınmaz əmlakın çox hissəsini atasının nazir olduğu vaxtda əldə edib.

Məlumatlarda başqa ilginc faktlar da özünə yer alırdı.

Çoxlarını isə həmin faktlarla yanaşı bu sual düşündürürdü: Anar Məmmədovun milyonlarla dollarlıq biznesinin indiyədək bilinməyən tərəfləri və tam dəqiq təfərrüatları niyə qəfildən ortaya çıxdı?

Yuxarıdakı suallа bağlı ən ağlabatan cavab o idi ki, Anarın eynilə deputat Feyziyev kimi Londonda ”qanunsuz əldə etdikləri gəlirdən” əmlak əldə etməkdə şübhəli bilinməsi və Böyük Britaniya məhkəməsi tərəfindən cəzalandırılması mümkündür. Axı tamamilə aydındır ki, o, ölkə xaricində, həmçinin İngiltərədə milyonlarla dollarlıq biznesə, əmlaklara məhz atası Ziya Məmmədovun nazir olduğu vaxtlardan etibarən sahib olmağa başlayıb. Belədə beynəlxalq mediada son araşdırmanın təsadüf olmadığını və Londonda ”yeni Feyziyev vaqiəsi”nin yaşana biləcəyini təxmin etmək çətin deyildi.

Bundan başqa, həbsdə olan Beynəlxalq Bankın keçmiş sədri Cahangir Hacıyevin həyat yoldaşının Britaniyadakı əmlakı da bu günlərdə müsadirə olunub. Zamirə Hacıyevanın Britaniya Milli Cinayətkarlıqla Mübarizə Agentliyinin (NCA) 6 il çəkən təhqiqatından sonra həmin müsadirəyə razılıq verdiyi bildirilir.

İndi Y.Eyyubovun İngiltərədəki şirkətlərindən birinin bağlanması və digərlərinin də bağlana biləcəyi yönündə xəbərləri, iddiaları da yuxarıda qeyd edilənlər fonunda dəyərləndirmək olar.

***Sənan Mirzə***

27_27 IYUl-QARA.qxd 8/8/2024 11:26 PM Page 4



# Böyük güclərin yeni oyunu: Ermənistan dövlətçiliyi qurban gedə bilər



***Xəbər verildiyi kimi, "Flightradar" qlobal uçuş izləmə xidmətinin məlumatına görə, avqustun 2 və 3-də ABŞ-nin Rumıniya və Yaxın Şərqdəki hərbi bazalarından Ermənistanın Zvartnots hava limanına doğru 2 hərbi təyyarə qalxıb.***

Bu barədə xəbər verən Caliber yazıb ki, ABŞ Silahlı Qüvvələrinə məxsus "Boinq C-17" hərbi yük təyyarəsi ilə şəxsi heyət hərbi yüklərlə birlikdə Zvartnots hava limanına gəlib. Aprelin 5-də Brüsseldə imzalanmış sənədin hərbi əməkdaşlığı nəzərdə tutan məxfi hissəsinə uyğun olaraq, Ermənistan silahlı qüvvələrinə ABŞ istehsalı olan yeni nəsil silahlar - snayper tüfəngləri, gecəgörmə cihazları, xüsusi rabitə vasitələri, zirehli texnika gətirilib. Ermənistan xüsusi təyinatlıları üçün ABŞ ordusunda istifadə edilən mini-hücum pilotsuz təyyarələri, kiçik ölçülü minalar və digər döyüş sursatları da bura daxildir.Məlumata görə, bundan əvvəl ABŞ Ermənistan xüsusi təyinatlıları üçün bu sursatlardan istifadə üzrə təlimlər keçirib, bundan sonra Ermənistan tərəfi silahları real şəraitdə sınaqdan keçirmək üçün Kəlbəcər istiqamətində Azərbaycan Ordusunun bölmələrinə qarşı hərbi təxribat törədib. Daha sonra, yuxarıda qeyd etdiyimiz kimi, ABŞ hərbi yük təyyarələri ilə Ermənistana külli miqdarda silah və sursat gətirilib. Bu silahların yerli relyef və hərbi şəraitə uyğunlaşdırıldığı da bildirilir.

Əslində, baş verənlər olduqca qəribədir. Belə ki, Amerika Birləşmiş Ştatları bir tərəfdən Cənubi Qafqazda sülh üçün çağırışlar edir, digər tərəfdən də Ermənistana silah daşıyır. Nəzərə alsaq ki, burada əsasən söhbət nəzarət etmək üçün də həmin texnikadan istifadə edilməsindən gedir. Belə olan təqdirdə, ABŞ-nin niyyəti aydın deyil. Bəzi şərhçilər əbəs yerə iddia etmir ki, ABŞ İranı izləmək üçün Ermənistandan istifadə edir. Demək ki, Paşinyan hökuməti Qərbin hərbi qanadına qoşulmaq üçün İranı ABŞ-yə "satıb".

Amma vizyonu daha da genişləndirsək, nəinki Azərbaycan, daha böyük miqayslı bir oyun qurulduğunu anlamaq olar. Hətta Cənubi Qafqazda Suriya modelinin tətbiq olunması üçün böyük güclərin öz maraqlarına uyğun planlarını işə saldıqları görünməkdədir.

Siyasi təhlilçi Aqşin Kərimov deyir ki, Rusiya-Ukrayna müharibəsinin rəngi Ukraynanın Kurska hücumu ilə dəyişir. Onun fikrincə, bu, NATO-nun Ukraynaya hərbi əməliyyatların planlaması və diversiya üçün təlimatlarının uğurlu başlanğıcını göstərə bilər: "Amma nəticədə Ukrayna öz ərazilərində yaradılmış Rusiya nəzarət zolağının sərhədlərini qıra bilməkdə çətinlik çəkir. Proses Rusiyanın Ukraynaya qarşı əməliyyatlarda nüvə ritorikasının şiddətlənməsinə, Kremlin Ukraynaya silah çatdıran təchizat zəncirlərini qırmaq səylərinin praktiki şəkildə təzahürünə gətirib çıxara bilər".

Müsahibimizin qənaətincə, ikinci məqam odur ki, qlobal münaqişələrin Yaxın Şərq cinahında genişlənən təhlükəsizlik boşluqları fonunda Ermənistan sürətli bir şəkildə özünü Cənubi Qafqazın "Suriyasına" çevirir: "Ermənistan əks qütblərin qoşunlarının üz-üzə dayandığı ölkə qismi statusuna sahiblənir. Gümrüdəki Rusiyanın hərbi bazasının mövcudluğu fonunda Ermənistana yerləşdirilmiş Avropa İttifaqı missiyası, bu yaxınlarda isə ABŞ hərbçilərinin Ermənistana gəlişi xəbərləri həmin tendensiyanı sürətləndirir. Bu onu göstərir ki, Ermənistan diplomatiyası və strategiyası ağıllı gediş etdiyini düşünsə də, ölkənin təhlükəsizlik problemləri yöndəmsiz şəkildə təhlükələrə sürüklənir. Ermənistan barədə qərarlar İrəvanın iradəsindən kənarda verilir ki, bu da regional problemlərin həllində mürəkkəb tənliklər yaradır. Ermənistan artıq güc qarşıdurmasını özünü oyunçuların birgə patrul nəzarəti altına salmaqla regional təhlükəsizliyi risk altına atır. Ermənistan həqiqətən də ABŞ hərbçilərinin öz ölkəsinə ayaq basmasına icazə veribsə, bu, onun Azərbaycanla yanaşı, İran və Türkiyə ilə münasibətlərində kəskin qarşıdurma xətləri yaradacaq".

A.Kərimovun fikrincə, göründüyü qədər, Yaxın Şərq cəbhəsinin alovlanması Ukraynadakı münaqişədən tutmuş Cənubi Qafqazdakı problemli məsələlərə qədər genişlənən təhlükəsizlik problemləri ərsəyə gətirir. O qeyd edib ki, münaqişə çatlarının qarşısı alınmasa, proses Mərkəzi Asiya regionuna da sıçramaq potensiallarına malikdir: "Azərbaycanla Türkiyənin təcili strateji məsləhətləşmələrə ehtiyacı yaranıb, çünki Bakının çoxkombinasiyalı regional həmlələr zamanı tək olmadığı bir daha nümayiş olunmalıdır. Əgər Ermənistan "Suriya modeli"ni öz taleyi kimi müəyyən edirsə, onda elə Suriyada aktiv rol alan Türkiyənin təcrübəsi Azərbaycanla birlikdə İrəvana tətbiq edilməlidir. Azərbaycan Ermənistanın sülh gündəliyindən yayınması üçün vasitələr və kanallar tapmasına cavab olaraq hərbi güc tətbiqi ssenarilərini işləyib hazırlayır. Bu, Azərbaycanın özünə qarşı yarana biləcək təhdidləri önləmək qabiliyyətinə əsaslanır".

Müsahibimiz onu da nəzərə çatdırıb ki, Ermənistan dövlətinin süqutu üçün zəmin hazırlanır, çünki o, ABŞ, Rusiya, Fransa, Hindistan və Çin arasındakı rəqabətin və ya sövdələşmələrin dişləri arasında sıxılır, üstəlik Azərbaycan, İran və Türkiyə ilə daha böyük problemli mərhələyə yaxınlaşdığını göstərir. "Rusiyanın Ermənistanın addımlarını cavabsız qoyacağı düşünülmür, amma indiki geosiyasi şərait Kremlin əleyhinə işlədiyindən, o, İrəvanla bağlı planlarını təxirə salmaq məcburiyyətindədir. Azərbaycan və Türkiyənin tezliklə regional və beynəlxalq münaqişələrə müştərək baxışla bağlı müzakirələr aparacağı istisna olunmur. Bu, əsasən, taleyi qaranlıqlaşan Ermənistan üzərindən qurulan ssenarilərə cavab kimi məsələləri əhatə edəcək", - deyə siyasi şərhçi fikrini tamamlayıb.

***M.İbrahimli***

## Dəhliz açılmasa, Ermənistan blokadadan çıxa bilməyəcək

### Cümşüd Nuriyev: "Bu razılıqla Azərbaycan-Ermənistan münasibətləri yaxşılaşmağa doğru gedəcək"



***Xəbər verdiyimiz kimi, İrəvan regional kommunikasiyalara dair maddənin qarşılıqlı razılaşma əsasında sülh müqaviləsi layihəsindən çıxarıldığı ilə bağlı rəsmi Bakının bəyanatını təsdiqləyib.***

Belə ki, Ermənistan Xarici İşlər Nazirliyinin sözçüsü Ani Badalyan marşrutların açılmasının Ermənistanın regionda sülh və iqtisadi inkişafa dair baxışı və gündəliyinin mühüm hissəsi olmaqda davam etdiyini bildirib. Həmçinin tərəflər Azərbaycanın qərb hissəsini Naxçıvanla birləşdirən marşrut da daxil olmaqla nəqliyyat kommunikasiyalarına dair maddənin sülh müqaviləsi layihəsindən çıxarılması barədə razılığa gəlib.

Bu məsələnin sonrakı mərhələdə həll olunması barədə razılıq əldə olunub. Bakı və İrəvanın Zəngəzur dəhlizi ilə bağlı razılığa gəlməsi sonrakı proseslərə necə təsir göstərəcək?

"Unikal" xəbər verir ki, mövzu ilə bağlı Bakıvaxtı.az-a açıqlama verən politoloq Cümşüd Nuriyev bildirib ki, əslində Azərbaycan və Ermənistan arasında Zəngəzur dəhlizi ilə bağlı hüquqi müstəvidə məsələlər həll edilsə də, müəyyən maraqlar, həm Şimal, həm Cənub qonşumuzda olan müəyyən qüvvələr bu məsələlərə mane olurdu.

C.Nuriyev qeyd edib ki, hətta İranın Ali dini lideri Əli Xamenei Nikol Paşinyanla görüşəndə dəhlizin açılmasını istəmirdi. Onun sözlərinə görə, Paşinyan hakimiyyəti artıq anlayır ki, dəhliz açılmasa, Ermənistan blokadadan çıxa bilməyəcək: "Həm Kərki kəndinin Azərbaycana qaytarılması ilə bağlı, həm Zəngəzur dəhlizinin açılması ilə bağlı Ermənistanda konkret fikir formalaşmaq üzrədir. Təbii ki, Azərbaycan da bu məsələlərdə dövlətin milli maraqlarına uyğun hərəkət edir".

Politoloq nəzərə çatdırıb ki, belə bir razılıq mətbuatda yayılsa da, nə qədər ki, kağız üzərində, yəni ikitərəfli razılaşma ilə imzalanıb təsdiqlənməyibsə, bu, tərəflərin razılığa gəlməsi demək deyil: "Amma bu razılığın əldə olunması ilə Azərbaycan-Ermənistan münasibətləri sürətlə yaxşılaşmağa doğru gedəcək. Bilirsiniz ki, Cənubi Qafqazı qarışdırmaq istəyən Qərb dövlətləri var. Burada Rusiya ilə ABŞ-nin maraqları toqquşur. Eyni zamanda Cənubi Qafqazı yenidən silahlı münaqişə ocağına çevirmək istəyirlər. Zəngəzur dəhlizinin açılması ilə bağlı əldə olunacaq razılıq hüquqi müstəvidə bu məsələlərə son qoyacaq".

## "HƏMAS heç vaxt İranla əlaqələrini kəsməyəcək" - Yəhya əs-Sinvar

***ABŞ və İsrailin artan təzyiqlərinə cavab olaraq Fələstinin HƏMAS qruplaşmasının Siyasi Bürosunun yeni rəhbəri Yəhya əs-Sinvar Qəzzada gənclərlə görüşüb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, onun sözlərinə görə, HƏMAS heç vaxt İranla əlaqələrini kəsməyəcək. HƏMAS Siyasi Bürosunun yeni rəhbəri çıxışında qrupun "Müqavimət və işğal rejiminin tərksilahı" ilə bağlı mövqeyini bir daha təsdiqləyib.

Sinvar onu da bildirib ki, heç kim HƏMAS-ı İsraili legitim dövlət kimi tanımağa məcbur edə bilməz.

***Gülayə Mecid***

27_27 IYUl-QARA.qxd 8/8/2024 11:27 PM Page 5



# Prezident İlham Əliyev Qazaxıstanda səfərdədir



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak etmək üçün avqustun 8-də Qazaxıstana səfərə gedib.***

Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidentini Qazaxıstanın Baş naziri Oljas Bektenov və digər rəsmi şəxslər qarşılayıblar.

Qarşılanma mərasimindən sonra Prezident İlham Əliyev Qazaxıstanın paytaxtı Astana şəhərində "Veçer drujbı" adlı qala konsertinə tamaşa edib.

Sonra Astanada dövlət başçılarının qeyri-rəsmi şam yeməyi olub.

Şam yeməyində İlham Əliyev iştirak edib.

# Məcburi köçkün seçicilərin sayı açıqlandı



***Azərbaycanda 399 min 50 nəfər məcburi köçkün seçici var.***

"Unikal" xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib.

Onun sözlərinə görə, həmin seçicilər 574 məntəqədə səs verəcəklər.

# Ödənişli təşviqat üçün MSK-ya 58 media subyekti müraciət edib



***Milli Məclisə seçkilərdə ödənişli əsaslarla təşviqat üçün Mərkəzi Seçki Komissiyasına 58 media subyekti müraciət edib.***

"Unikal" xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib.

O bildirib ki, bununla bağlı məlumat MSK-nın saytında yerləşdirilib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000



# Parlament seçkiləri ilə bağlı MSK-ya 14 müraciət daxil olub

***Şikayətlərə baxılması bugündən sonra məhkəmələr səviyyəsində olacaq. İndiyə qədər MSK-ya 14 müraciət daxil olub. İndiyə qədər 6 müraciət təmin edilib.***

"Unikal" xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) bu gün keçirilən iclasında MSK sədri Məzahir Pənahov deyib.

# Müəllimlərin müsahibə mərhələsinin vaxtı açıqlandı

***Müəllimlərin işə qəbulu (MİQ) üzrə müsabiqənin müsahibə mərhələsinə start verilir.***

Bu barədə "Unikal"a Təhsil İnstitutundan məlumat verilib.

Bildirilib ki, avqustun 14-dən etibarən müəllimlərin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsinə başlanılır. Ümumilikdə 5740 namizədin dəvət olunduğu müsahibələr avqust ayının 22-dək davam edəcək.

Müsahibə zamanı namizədlərin peşəkar kompetensiyaları, psixoloji hazırlığı və ümumi dünyagörüşü müsahibə proqramına uyğun olaraq müvafiq komissiya tərəfindən yoxlanılacaq. Müsahibə mərhələsində uğur qazanan namizədlər ümumi təhsil müəssisələrində müddətsiz əmək müqaviləsi ilə çalışmaq imkanı qazanacaqlar.

Qeyd edilib ki, namizədlər şəxsi səhifəsində qeyd olunan tarixdə müsahibə mərhələsində iştirak etmədiyi halda bu,



tutduğu vakant yerdən imtina kimi qeydə alınacaq və həmin namizədlərin müddətli müqavilə ilə işə qəbul turlarında iştirakı təmin olunmayacaq.

# 1030 nəfərin deputatlığa namizədliyi qeydə alındı

***İndiyə qədər növbədənkənar parlament seçkiləri ilə əlaqədar 1030 nəfərin deputatlığa namizədliyi qeydə alınıb.***

"Unikal" xəbər verir ki, buu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib.

Qeyd edək ki, növbədənkə-



nar parlament seçkiləri ilə əlaqədar 1508 nəfərin deputatlığa namizədliyi irəli sürülüb. Deputatlığa namizədliyi irəli sürülənlərdən 1462 nəfərin namizədliyi təsdiqlənib, onlardan 1420 nəfərə imza vərəqi verilib, 1197 nəfər imza vərəqələrini qaytarıb.

# Azərbaycanda unun qiyməti ucuzlaşacaq? - Açıqlama

***"Dünyada taxılın qiymətində müəyyən artımlar var. Bu da müharibələrlə, münaqişələrlə və iqlim dəyişikliyi ilə əlaqədardır. Bizdə ərzaqlı buğda ilə təminat hardasa 70-75 faizdir. Qalan hissəsi isə kənardan alınır".***

Bunu "Unikal"a açıqlamasında Milli Məclisin VI çağırış deputatı, parlamentin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. O bildirib ki, ölkəmizdə ərzaqlıq buğdanın istehsalı üçün müəyyən imkan və şərait yaradılır:

"Son illər bu istiqamətdə müəyyən nəticələr var. Perspektiv göstərir ki, 2-3 il ərzində özümüzü ərzaqlıq buğda ilə tam təmin edə bilərik. İlin bu fəslində taxıl biçini ilə əlaqədar qiymətin müəyyən qədər artması gözlənilən olur. Taxıl biçini başa çatdıqdan sonra görəcəksiz ki, unun və buğdanın qiymətində müəyyən qədər azalma var. Hələ taxıl biçini başa çatmayıb. Hesab edirəm



ki, əvvəlki illərə nisbətən məhsul yaxşı olacaq. Keçən il xeyli artım olub. Bu il də həmin artım gözlənilir".

# AYNA azad edilmiş ərazilərdə marşrut xətlərini müsabiqəyə çıxardı

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) sərnişindaşıma xidmətinin keyfiyyətinin artırılması ilə bağlı tədbirlər çərçivəsində Bakı-Laçın, Bakı-Xankəndi-Laçın, Bakı-Cəbrayıl, Bakı-Zəngilan, Bakı-Qubadlı, Sumqayıt-Qubadlı, Mingəçevir-Laçın, Horadiz-Laçın, Xocalı-Şuşa, Xankəndi-Şuşa, Xankəndi-Malıbəyli, Xankəndi-Laçın, Xocalı-Laçın, Naftalan-Suqovuşan şəhərlərarası və Bərdə 4 nömrəli şəhərdaxili avtobus marşrutlarını müsabiqəyə çıxarıb.***

"Unikal" xəbər verir ki, müsabiqə "Avtomobil nəqliyyatı haqqında" Qanuna, Nazirlər Kabinetinin 2009-cu il 3 aprel tarixli qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin



daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası"na uyğun olaraq təşkil edilir.

Sənədlər 6 sentyabr 2024-cü il saat 17:00-a qədər AYNA-da (ünvan: Bakı şəhəri, Tarzən Hacı Məmmədov küçəsi 5; əlaqələndirici şəxs: Elsevər Qədimov - tel.: 050-855-53-55, e-poçt: elsevar.gadimov@ayna.gov.az) qəbul ediləcək.

Müsabiqəyə əsas avtobuslarla yanaşı, ehtiyat nəqliyyat vasitələri də təqdim olunmalıdır. İddiaçıların təklifləri komissiya tərəfindən Bakı-Laçın (Zəfər yolu), Bakı-Xankəndi-Laçın, Bakı-Laçın (Laçın-Həkəri-Zəngilan yolu), Bakı-Cəbrayıl, Bakı-Zəngilan (Ağalı kəndi) istiqamətlərində 5 Lot üzrə sentyabrın 24-də;

Bakı-Qubadlı, Sumqayıt-Qubadlı, Mingəçevir-Laçın və Horadiz-Laçın istiqamətlərində 4 Lot üzrə sentyabrın 27-də;

Xocalı-Şuşa, Xankəndi-Şuşa, Xankəndi-Malıbəyli və Xankəndi-Laçın istiqamətlərində 4 Lot üzrə oktyabrın 1-də;

Bərdə 4 nömrəli şəhərdaxili avtobus marşrutu, eləcə də Xocalı-Laçın və Naftalan-Suqovuşan istiqamətlərində 3 Lot üzrə oktyabrın 4-də baxılacaq.

Lotlar üzrə marşrutların qrafikləri haqqında məlumatı buradan əldə edə bilərsiniz.

Şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) marşrut xətləri qanunvericiliyin tələblərinə uyğun olaraq mərhələli qaydada müsabiqəyə təqdim edilir. Məqsəd sərnişindaşıma sahəsində göstərilən xidmətin keyfiyyəti, təhlükəsizliyi və rahatlığının artırılmasıdır.

27_27 IYUl-QARA.qxd 8/8/2024 11:27 PM Page 6



# Baş nazir SHXÇDX ilə bağlı qərar imzaladı

***Baş nazir Əli Əsədov "Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) əməkdaşlarının sağlamlığının mühafizəsi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" qərar imzalayıb.***

"Unikal" xəbər verir ki, qərarla SHXÇDX-nin əməkdaşlarına (Xidmətdən pensiyaya çıxmış əməkdaşlar da daxil olmaqla) və onların ailə üzvlərinə tibbi xidmətin göstərilməsi, o cümlədən xəstəliklərin profilaktikası, ilkin tibbi-sanitariya yardımı, təcili və təxirəsalınmaz tibbi yardım, ambulator-



poliklinik və stasionar tibbi yardım, onların tibbi reabilitasiyası və sağlamlaşdırılmasının təmin edilməsi "Hərbi qulluqçuların statusu haqqında" qanunun və "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin tələbləri nəzərə alınmaqla, Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən həyata keçiriləcək.

Maliyyə Nazirliyinə tapşırılıb ki, qərarın icrası ilə əlaqədar müvafiq vəsaitin hər il növbəti ilin dövlət büdcəsi layihəsinin tərtibi zamanı SHXÇDX-nin DSX ilə razılaşdırılmış təklifləri əsasında DSX-nin saxlanılması xərclərinin tərkibində nəzərdə tutulmasını təmin etsin.

Qərar 2024-cü il sentyabrın 1-dən qüvvəyə minir.

# Mikayıl Cabbarov yeni qərar verdi

***İqtisadiyyat Nazirliyinin Kollegiyası "İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnika, texnoloji avadanlıqlar və qurğuların, habelə xammal və materialların idxalına dair təsdiqedici sənədin verilməsi Qaydası"nı təsdiqləyib.***

"Unikal" xəbər verir ki, bununla bağlı nazir Mikayıl Cabbarov yeni qərar imzalayıb. Qərara əsasən, təqdim olunmuş sənədlərə baxılmasının nəticəsi əsasında ərizənin qeydiyyata alındığı tarixdən 7 iş günündən gec olmayaraq təsdiqedici sənəd verilməsi və yaxud verilməsindən imtina haqqında inzibati akt qəbul ediləcək, bu barədə məlumat 2 iş günü müddətində ərizəçiyə təqdim ediləcək və yaxud poçtla, eləcə də elektron üsulla göndəriləcək.

Təsdiqedici sənədin verilməsi, verilməsindən imtina, təsdiqedici sənədə düzəlişin edilməsi, onun yenidən rəsmiləşdirilməsi, dayandırılması və ləğv edilməsi haqqında məlumat 3 iş günü müddətində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə, Maliyyə Nazirliyinə və Dövlət Gömrük Komitəsinə təqdim edilir.

Aşağıdakı hallarda təsdiqedici sənədin verilməsindən imtina ediləcək:

- təsdiqedici sənədin verilməsi barədə ərizədə və ona əlavə olunmuş sənədlərdə Azərbaycanın qanunları və digər normativ hüquqi aktları ilə müəyyən edilən tələblərə uyğun olmayan məlumatlar olduqda.

-ərizəçi təsdiqedici sənədin verilməsi şərtlərini yerinə yetirmədikdə.

- Təsdiqedici sənədin verilməsindən imtina haqqında inzibati akt imtina hallarına istinad edilməklə, əsaslandırılmalıdır. Ərizəçi inzibati aktdan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

Təsdiqedici sənədin qüvvəsi aşağıdakı hallarda dayandırılacaq:

- təsdiqedici sənəd sahibi tə-



rəfindən müvafiq ərizə təqdim edildikdə;

- təsdiqedici sənəd sahibi təsdiqedici sənədin şərtlərinin pozulması hallarının aradan qaldırılmasına dair İqtisadiyyat Nazirliyinin göstərişlərini yerinə yetirmədikdə;

- Azərbaycanın qanunları və digər normativ hüquqi aktları ilə müəyyən edilmiş digər hallarda.

Nazirliyin Hüquq şöbəsinə bu Qərarın 3 gün müddətində Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim edilməsi tapşırılıb.

# Fransa müstəmləkəçiliyindəki xalqların beynəlxalq konfransı keçirilib

***Fransa müstəmləkəçiliyi altında yaşayan xalqların təmsilçilərinin Korsikada iki günlük beynəlxalq konfransı keçirilib.***

"Unikal" APA-ya istinadən xəbər verir ki, "Nazione" hərəkatının təşkilatçılığı ilə keçirilən konfransda müstəqillik hərəkatlarının təmsilçiləri Fransanın işğalı altında olan müstəmləkələrin qarşılaşdığı problemləri çatdırıblar.

Müzakirələrdə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyindən başlayaraq dekolonizasiya prosesinin dünya ictimaiyyətinin və beynəlxalq təşkilatların diqqət mərkəzinə gətirildiyi xüsusi vurğulanıb.




İştirakçılar Azərbaycanın, o cümlədən Bakı Təşəbbüs Qrupunun dekolonizasiya istiqamətində göstərdiyi dəstəyi yüksək qiymətləndirərək, dünyanın müxtəlif ölkələrində dekolonizasiyaya həsr olunmuş beynəlxalq konfransların təşkil edildiyini məmnunluqla qeyd ediblər. Tədbir iştirakçıları səylərin birləşdirilməsinin, birgə təşəbbüslərin irəli sürülməsinin, o cümlədən kolonializm məsələsinin daha ciddi şəkildə beynəlxalq təşkilatlar qarşısında qoyulmasının vacibliyini bildiriblər.

Fransanın işğal altında saxladığı ərazilərdə kütləvi şəkildə insan hüquq və azadlıqlarını pozduğu, insanların fundamental hüquqlarına hörmət etmədiyi bir daha vurğulanıb və bu kimi qeyri-qanuni fəaliyyətlər qınanıb.

Tədbir iştirakçıları Fransa hökumətinə çağırış edərək, beynəlxalq öhdəliklərinə əməl etməsi tələb olunub.

# Şagird yerdəyişməsinə start verilir

***Bu gündən 2024-2025-ci tədris ili üzrə şagird yerdəyişməsinə start verilir.***

"Unikal" xəbər verir ki, bu barədə Elm və Təhsil Nazirliyi məlumat yayıb.

Bildirilib ki, proses sy.edu.az sistemi üzərindən həyata keçiriləcək. Yerdəyişmə 2-9 və 11-ci siniflər üçün 8 avqust saat 15:00, 10-cu siniflər üçün isə 15 avqust saat 15:00-dan aktivləşdiriləcək.

Ümumi təhsil müəssisələrinə sorğu yerləşdirmə prosesinin dayandırılması haqqında məlumat ictimaiyyətə öncədən elan ediləcək.

# Bu şəhər və rayonların icra başçısı yoxdur

***Xəbər verdiyimiz kimi, ötən gün Prezident İlham Əliyevin imzaladığı sərəncamla Tofiq İbrahimov Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.***

"Unikal"ın məlumatına görə, hazırda ölkəmizdə icra başçısı olmayan şəhər və rayonların sayı 3-dür.

Belə ki, Ağdaşla yanaşı Culfa rayonunun və Naxçıvan şəhərinin icra başçısı vəzifəsi boşdur. Culfanın icra başçısı Siyam Çərkəz oğlu Hacıyev 31 avqust 2023-cü il tarixində işdən çıxarılıb və onun yerinə təyinat aparılmayıb.

17 noyabr 2023-cü il tarixində isə Mirsənani Seyidov Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad olunub. Şəhər rəhbərinin yerinə hələ ki, təyinat olmayıb.

# Şəxsiyyət vəsiqəsini dəyişdirmək istəyənlərin nəzərinə

***Vətəndaşlara şəxsiyyət vəsiqələrinin verilməsi sahəsində operativliyin və vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində ərazi polis orqanlarının qeydiyyat və şəxsiyyət vəsiqəsi xidmətləri tərəfindən tədbirlər görülür.***

"Unikal" xəbər verir ki,bu barədə Daxili İşlər Nazirliyi (DİN) məlumat yayıb. Bildirilib ki, rayon mərkəzlərindən uzaq olan ərazilərdə yaşayan, həmçinin, sağlamlıq imkanı məhdud olan vətəndaşlara şəxsiyyət vəsiqələrinin yaşadıqları ünvanda verilməsi təmin edilir.

Bu məqsədlə Qazax, Goranboy, Şabran, Beyləqan, Gədəbəy rayonlarında ərazi polis orqanlarının əməkdaşları tərəfindən səyyar xidmətlər təşkil edilib.

Bu sahədə işlər davam etdirilir.

# "Ermənistanın etnik təmizləmə siyasəti ilə azərbaycanlıların fundamental azadlıqları pozulub" - Ombudsman

***Beynəlxalq ictimaiyyət indiki Ermənistan ərazisindən deportasiyaya məruz qalmış azərbaycanlıların geri qayıtmaq hüququnun təmini, həmin şəxslərin öz yurdlarına təhlükəsiz və ləyaqətli qayıdışına şərait yaradılması istiqamətində zəruri tədbirlər görməli, bu tarixi ədalətsizliyin aradan qaldırılması üçün həmin ölkəyə ciddi təzyiq göstərməlidir.***

Bu, Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili Səbinə Əliyevanın (Ombudsman) Ermənistan ərazisindən sonuncu azərbaycanlıların deportasiyasının 33-cü ildönümü ilə bağlı müraciətində qeyd edilib.

"Tarixin müxtəlif dövrlərində, xüsusilə ötən əsrdə yüz minlərlə soydaşlarımız indiki Ermənistan ərazisindən etnik mənsubiyyətinə görə didərgin salınmış, insanlıq əleyhinə və müharibə cinayətlərinin qurbanına çevrilərək amansızcasına qətlə yetirilmiş, müxtəlif ağır xəsarətlər almış, həmçinin əsir və itkin düşmüş, girov götürülmüşdür. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə və nifrət siyasəti nəticəsində azərbaycanlıların fundamental insan hüquq və azadlıqları kobud şəkildə pozulub".

Qeyd edilib ki, Azərbaycan Ombudsmanı Ermənistanın azərbaycanlılara qarşı törətmiş olduğu nifrət cinayətləri və nifrət nitqlərinə dair xüsusi hesabatlar və videomaterial hazırlayaraq aidiyyəti beynəlxalq təşkilatlara təqdim edib.

27_27 IYUI-QARA.qxd 8/8/2024 11:27 PM Page 7



# Qarabağ Universitetində III qrup üzrə plan yerləri



***Qarabağ Universitetində ayrılan plan yerlərinin sayı məlum olub.***

Universitetdə I ixtisas qrupu üçün 290 yer, II və III qruplar üçün 330 plan yeri ayrılıb.

**I ixtisas qrupunda:**

Riyaziyyat müəllimliyi (RK): 60 yer

Elektrik və elektronika mühəndisliyi (RK): 40 yer

İnşaat mühəndisliyi (RK): 40 yer

Kompüter mühəndisliyi (Rİ): 100 yer

Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi (RK): 30 yer

Mexatronika və robotexnika mühəndisliyi: 30 yer

**II ixtisas qrupunda:**

Beynəlxalq ticarət və logistika: 30 yer

Dövlət və bələdiyyə idarəetməsi: 40 yer

İqtisadiyyat: 40 yer

Maliyyə: 40 yer

Menecment: 30 yer

Mühasibat: 30 yer

Turizm işinin təşkili: 120 yer

**III qrupda:**

Azərbaycan dili və ədəbiyyat müəllimliyi: 60 yer

İbtidai sinif müəllimliyi: 60 yer

Xarici dil müəllimliyi: 60 yer

Beynəlxalq münasibətlər: 60 yer

Hüquqşünaslıq: 60 yer

Tarix: 30 yer

Universitetdəki bütün ixtisaslar dövlət sifarişlidir.

Xatırladaq ki, Qarabağ Universiteti Azərbaycan Prezidentinin 28 noyabr 2023-cü il tarixli sərəncamı ilə yaradılıb.

# Azərbaycanda İİV-ə yoluxanların sayı açıqlandı




***"Dünyada İİV/QİÇS-ə qarşı aparılan mübarizə tədbirlərinə baxmayaraq, infeksiyanın yayılması hələ də davam etməkdədir".***

"Unikal" xəbər verir ki, bu fikirləri Səhiyyə Nazirliyi Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktor müavini Günəş Cəfərova "Sağlam radio"da açıqlayıb.

Onun sözlərinə görə, ölkəmizdə bu infeksiya əsasən İİV-ə yoluxmaya yüksək riskli qruplar arasında yayılıb: "Azərbaycanda İİV -infeksiyasının ilk dəfə aşkar olunduğu 1987-ci ildən 2024-cü ilin ikinci rübünün sonunadək İİV-lə yaşayan insanların sayı 9926 nəfərdir. Onlardan 69,5%-i kişi, 30,5%-i qadındır. Aparılan əks epidemik tədbirlər nəticəsində ölkədə İİV/QİÇS-lə mübarizə istiqamətində mühüm addımlar atılıb və nailiyyətlər qazanılıb. Azərbaycan region ölkələri ilə müqayisədə İİV infeksiyasının yayılma göstəricisi ən aşağı olan ölkələr sırasındadır. Xüsusilə qeyd etmək istərdim ki, ölkədə İİV/QİÇS-lə mübarizə sahəsində aparılan çoxistiqamətli profilaktika strategiyası hesabına İİV/QİÇS-lə bağlı cəmiyyətdə məlumatlılıq səviyyəsi artıb".

Direktor müavini bildirib ki, orta və ali məktəblərdə, tibb müəssisələrində, insanların sıx toplaşdığı məkanlarda və eyni zamanda risk qrupları arasında aparılan maarifləndirici tədbirlər və müayinə aksiyaları ölkədə İİV-ə müayinələrin səviyyəsinin yüksəlməsinə, bilavasitə aşkarlanmanın artmasına səbəb olub.Aparılan müayinələr nəticəsində İİV-ə yoluxan şəxslər xəstəliyin erkən mərhələlərində aşkar olunaraq müalicə proqramına vaxtında cəlb olunurlar.

G.Cəfərova qeyd edib ki, İİV-lə yaşayan insanların müalicəsində son illər ÜST tərəfindən tövsiyə olunan müasir, daha effektiv və kombinə olunan preparatların istifadəsi də İİV-ə yoluxmuş insanların həyat keyfiyyətinin yaxşılaşmasına və ömrünün uzanmasına səbəb olur.

# "Kəndçilərin çoxunun qapısında mal-qara yoxdur"

## Komitə sədri Tahir Rzayev deyir ki, iri fermer təsərrüfatları yaranır və orada cins mal-qaranın saxlanılmasına üstünlük verilir, bu da yaxşı haldır



***Milli Məclisin VI çağırış deputatı, parlamentin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Unikal"a müsahibə verib. O, mövsümi meyvə-tərəvəzin, xüsusilə pomidorun, xiyarın baha olmasından, qarşıdakı dövrdə un və çörəyin qiymətinin azala biləcəyindən və Azərbaycanda heyvanların sayının azalmasının səbəblərindən danışıb.***

***-Tahir müəllim, avqust ayı olmasına baxmayaraq, meyvə-tərəvəzin qiyməti həddindən çox yüksəkdir. Əvvəlki illərin bu aylarında ucuz satılan pomidor və xiyarın qiymətində daha çox artım müşahidə olunur. Belə ki, ötən ilin bu ayı ilə müqayisə etsək, pomidor və xiyarın qiyməti həmin dövrlə müqayisədə 3 dəfə bahadır. Bu artımın olması nə ilə bağlıdır?***

-Hazırda məhsul boldur. Bu, müəyyən işbazların qiymətləri artırması, həmçinin, bazara çıxışda müəyyən məhdudiyyətlərin olması ilə bağlıdır. İsti hava şəraitində insanlar öz məhsullarını Bakıya gətirməkdən çəkinirlər. Bunlara baxmayaraq, məhsul bolluğu var. Bu il hava şəraiti də yaxşı keçib. Bu hal hər birimizdə təəssüf doğurur, niyə belə halda qiymətlər artır? Görünür müəyyən işbazlar süni qaydada qiyməti artırırlar. Rayonlardan aldıqları məhsulu şəhərdə ikiqat baha qiymətə satır. Havaların yağışlı olmasının da müəyyən qədər təsiri ola bilər. Amma rayonlarda qiymət aşağıdırsa, Bakıda bunun ikiqat baha satılması şübhə doğurur. Burada müəyyən təzadlar var, bu hal aradan qaldırılmalıdır.

***-İyun ayının əvvəllərində unun qiymətində müəyyən artım müşahidə olundu. Yay aylarında taxıl biçininin olduğunu nəzərə alsaq, qarşıdakı dövrdə unun və çörəyin qiymətində azalma ola bilərmi?***

-Dünyada taxılın qiymətində müəyyən artımlar var. Bu da müharibələrlə, münaqişələrlə və iqlim dəyişikliyi ilə əlaqədardır. Bizdə ərzaqlı buğda ilə təminat hardasa 70-75 faizdir. Qalan hissəsi isə kənardan alınır. Ölkəmizdə ərzaqlıq buğdanın istehsalı üçün müəyyən imkan və şərait yaradılır. Son illər bu istiqamətdə müəyyən nəticələr var. Perspektiv göstərir ki, 2-3 il ərzində özümüzü ərzaqlıq buğda ilə tam təmin edə bilərik. İlin bu fəslində taxıl biçini ilə əlaqədar olaraq qiymətin müəyyən qədər artması gözlənilən olur. Taxıl biçini başa çatdıqdan sonra görəcəksiz ki, unun və buğdanın qiymətində müəyyən qədər azalma var. Bu ötəri bir proses olduğu üçün keçəcək. Bu il məhsul yaxşı olub. Hələ taxıl biçini başa çatmayıb. Hesab edirəm ki, əvvəlki illərə nisbətən məhsul yaxşı olacaq. Keçən il xeyli artım olub. Bu il də həmin artım gözlənilir. Artıq taxılçılıqda müasir texnologiya tətbiq olunur. Eyni zamanda, toxum sortları yaxşılaşdırılır. İldən-ilə taxılçılıqda uğurlar qazanılır.

***-Azərbaycanda iri və xırdabuynuzlu heyvanların sayında azalma müşahidə olunur. Ötən ilin eyni dövrü ilə müqayisədə iribuynuzlu malqaranın sayı 1.6 faiz, qoyun və keçilərin sayında isə 2.6 faiz azalma olub. Heyvanların sayının azalmasının səbəbi nədir?***

-Azalmanın səbəbləri həm müsbət, həm də mənfi ola bilər. Müsbət hal ondadır ki, əgər ölkəyə yüksək məhsullu ətlik, südlük heyvanlar gətirilirsə, bu zaman zəif heyvanlar azalmalıdır. Xarici ölkələrdə elə inəklər var ki, onun biri bizdəki 5 inəyin südünü verə bilir. Bu baxımdan azalma məqbul sayılmalıdır. Artıq xarici ölkələrdən cins heyvanlar gətirilir. Bunlar yaxşı ət və süd verirlər. Amma doğrudan da məhsuldarlıq azalırsa, bu, yaxşı hal deyil. Bizdə məhsuldarlıqda azalma yoxdur, əksinə artım var. Ona görə də bu qorxulu tendensiya deyil. Nəticələrə baxanda görürsən ki, əvvəl bir qoyun 20-25 kiloqram ət verirdisə, indi cins sortlar 50-70 kiloqram ət verir. İribuynuzlu mal-qarada çəki artımı varsa, deməli bu yaxşı haldır. Digər hallarda ola bilər ki, müəyyən yerlərdə insanlar mal-qara saxlamaqda çətinlik çəkirlər və ya özləri istəmirlər. Dəfələrlə bu barədə demişəm ki, kəndçinin qapısında qoyunu, quzusu olmalıdır. Ondan istifadə etməlidir. Eyni zamanda ev quşları, mal-qara saxlamalıdır. Təəssüflər olsun ki, bu gün kəndçilərin çoxunun qapısında malqara yoxdur. Amma iri fermer təsərrüfatları yaranır və orada cins mal-qaranın saxlanılmasına üstünlük verilir, bu da yaxşı haldır.

***Anar Kəlbiyev***

# Cəbrayıla köç başlayır

***Növbəti ay Cəbrayıl şəhərinə köç həyata keçiriləcək.***

"Unikal" xəbər verir ki, bunu Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin böyük məsləhətçisi Anar Əkbərov deyib.

O bildirib ki, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı çərçivəsində




üç şəhər mərkəzi, 5 qəsəbə, 24 kəndin inşası və oraya əhalinin köçürülməsi nəzərdə tutulub: "2022-2026-cı illəri əhatə edən proqramın birinci mərhələsi çərçivəsində 41 mindən çox keçmiş məcburi köçkün könüllülük prinsiplərinə əməl olunmaqla öz dədə-baba yurdlarına köçəcəklər. Növbəti ay Cəbrayıl şəhərinə köç həyata keçiriləcək. Oktyabrın 4-də Cəbrayıl şəhərinin azad edildiyi gündür. Bu münasibətlə keçiriləcək tədbirlərdə gəncləri görmək çox xoş olardı".

# Oliqarxların rayonlardakı hotellərində ağlasığmaz bahalaşma

## Bölgələrdə bir günə 2 min manat istəyən hotel də varmış... - İlbəil artan qiymətlərin gizlinləri!

***Bölgələrdə yerləşən hotellərdə əvvəlki illərdə onsuz da baha olan qiymətlər bu il daha da bahalaşıb. Belə məlum olub ki, bir çox hallarda qiymətlər astronomik həddə çatır. Məsələn, "Bakupost"un araşdırmasına görə, Qubada yerləşən məşhur "Quba Palace" otelində qiymətlər 2 nəfər üçün 455 manatdan başlayır. Daha lüks şəkildə dincəlmək istəyənlər üçün isə qiymətlər düz 2120 manata qədər qalxır! Halbuki adı çəkilən hoteldə əvvəlki qiymətlər 170-240 manat arasında dəyişirdi.***



"Mountain Breeze" hotelində 2 nəfərlik kottec 120, 4 nəfərlik isə 200 manat, "Macara Lake Park" hotelində 1 gecəlik ekonom otaqlar 140 manatdır. 2 nəfərlik otaq qiymətləri 230 manata kimi dəyişir.

Şamaxıda "Shamakhi Palace"da səhər yeməyi daxil 270 manat, səhər-axşam yeməyi 320 manat, 3 dəfə qidalanma isə 380 manatdır. Əvvəllər isə qiymət 200 manat olub. "Göyqurşağı" hotelində qiymətlər həftəiçi 90, həftəsonu 100 manatdır. "Sakit göl" otelində də qiymətlər həftəiçi və həftəsonuna görə dəyişir. Əgər həftəiçi gedirsinizsə, 1 günü 195 manat, həftəsonu isə 215 manatdır. Buraya ancaq səhər yeməyi daxildir. Əvvəlki qiymətlər 170-210 manata olub.

"Qalaaltı" hotelində əsas binada 2 dəfə qidalanma ilə birgə 280, 3 dəfə qidalanma ilə birgə 320 manat ödəmək lazım gəlir.

Şabranda "Shabran Wellbeing" hotelində 2 nəfər üçün qiymət 155 manatdır. Lüks otaqların qiyməti isə 410 manata çatır.

Qəbələdə "Qafqaz Riverside" hotelində 1 gecə qalmağın qiyməti 384 manatdır. Əvvəllər isə qiymət 173 manat olub. "Qafqaz Tufandağ" otelində qiymət 400 manatdır və buraya tək səhər yeməyi daxildir. "Gabala garden" otelində 2 nəfərlik 263 manat, "Nohurgöldə" isə gecələmək 180-430 manata qədərdir.

Şəkidə "Marxal" hotelində qiymətlər otağın eyvanlı-eyvansız olmağına görə dəyişir: 170-190 manat. Əvvəlki illərdə isə qiymətlər 150-170 manat olub. "Sheki Park" otelində isə 2 nəfər üçün qiymət 150 manatdır.

Lənkəranda "Lankaran Springs Vellnes Resort"da həftəiçi 2 nəfərlik tək səhər yeməyi ilə 220 manat, 2 dəfə qidalanma 280, 3 dəfə qidalanma 320 manat olacaq. Həftəsonu qiymətlər müvafiq olaraq 240-300-340 manatdır.Əvvəlki illərdə isə qiymət 1 gecə üçün 175 manat olub. Lənkəranda "Riva Hill" hoteldə isə 2 nəfərlik nömrənin qiyməti 159 manatdır.

Qaxda "Bergs Hotel & Restaurant" hotelində 1 gecə qalmaq 109 manat, "Hilltop Heaven" hotelində 2 nəfərlik nömrə səhər yeməyi daxil 115 manatdır.

İsmayıllıda "Basqal Resort & Spa" otelində qiymətlər 170 manatdan başlayır. "Şəki yaylası" otelində isə səhər yeməyi daxil 2 nəfər 120 manat, 3 nəfər 130 manat ödəməlidir.

Əlavə edək ki, qiymətlərin baha olması səbəbindən insanlar daha çox günlük evlərə üstünlük verirlər. Belə kənd evləri daha ucuz başa gəlir.

Bəs bölgələrdəki hotellərdəki yüksək qiymətlərin və ilbəil aydın şəkildə müşahidə olunan bahalaşmanın səbəbini yalnız yay mövsümü ilə əlaqələndirmək nə qədər doğrudur? Ekspertlərin bəziləri deyirlər ki, bahalaşmaya başlıca səbəb rayonlarda hotellərin azlığıdır. Yay aylarında bölgələrə axın çoxaldığı üçün tələb artır, bu isə hotel sahiblərinin qiymətləri qaldırması ilə nəticələnir.

Bəzi ekspertlər isə problemin kökünü rəqabət mühitinin olmamasında görürlər. Onların dediyinə görə, bölgələrdəki hotellər müxtəlif məmurlara, yaxud onların himayəsindəki sahibkarlara, iş adamlarına məxsusdur. Bu isə gizli inhisarlaşmaya gətirib çıxarır: belə məmurlar söz sahibi olduqları bölgələrdə hotelçiliyin inkişafında maraqlı görünmürlər, müxtəlif vasitələrlə yeni hotellərin fəaliyyətə başlamasını əngəlləyirlər. Nəticədə rəqabətsizlik şəraitində Azərbaycan reallığı üçün fantastik olan qiymətlər ortaya çıxır.

Müşahidələr onu göstərir ki, bölgələrdə hotellərin yüksək qiymətləri yalnız yay mövsümü üçün xarakterik deyil. Yəni payıza doğru qiymətlər müəyyən qədər aşağı düşür və ilin digər fəsillərində əsasən yüksək olaraq qalır. Təbii ki, orta azərbaycanlının cibi ilə müqayisədə!

Başqa bir problem isə ondan ibarətdir ki, Azərbaycanda daha çox 4 və 5 ulduzlu hotellər açmağa meyl var. Baxmayaraq ki, bu hotellərin bir çoxunda real vəziyyət, xidmət keyfiyyəti və s. 3 ulduzlu hotellər səviyyəsindədir. Əvəzində isə 2-3 ulduzlu hotellərin fəaliyyəti nəyə görəsə stimullaşdırılmır. Halbuki belədə əksər vətəndaşların maddi imkanlarına uyğun qiymətlər müəyyənləşərdi.

Bir sözlə, oliqarx maraqları hər sahədə olduğu kimi hotelçilikdə də arzuedilməz vəziyyət yaradıb. Söhbət hotellərdə qalmaq istəyən sadə insanlar üçün əlçatmaz qiymətlərdən gedir. İş o yerə çatıb ki, nəinki istirahət, hər hansı iş üçün rayonlardan birinə üz tutan vətəndaş orada gecələməkdən ötrü ya tanış-biliş, qohum-qardaş evi, ya da günlük kirayə mənzil axtarmaq məcburiyyətində qalırlar...

*Sənan Mirzə*

## "Xoşagəlməz halların olmasından heç kəs sığortalanmayıb" - MSK sədri



***"Seçkilərdə milyonlarla insan iştirak edir. Bu zaman xoşagəlməz halların olmasından heç kəs sığortalanmayıb".***

"Unikal" xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib.

MSK sədri bildirib ki, media nümayəndələri daima prosesin içərisində olduğundan seçkini obyektiv işıqlandırmalıdırlar: "Media subyektləri öz auditoriyasını genişləndirmək üçün sensasion ştrixlərdən istifadə etməməlidirlər. Media subyektlərinin seçkilərin işıqlandırılmasındakı rolu olduqca vacibdir. Onlardan böyük gözləntilərimiz var".

Media nümayəndələrinin əməyini yüksək qiymətləndirən M.Pənahov dünyada medianın rolunun böyük önəm daşıdığını vurğulayıb.

## "Bu kimi hallara qarşı sayıqlığımızı artırmalıyıq" - Əhməd İsmayılov



***Təcrübə göstərir ki, seçkilər zamanı ölkəmizin informasiya mühitinə kənardan yönləndirilən təhdidlər artır, informasiya manipulyasiyasının bütün formalarının sistemli şəkildə tətbiq edilməsi halları müşahidə olunur. İctimai rəyi çaşdırmağa, ölkəmiz haqqında mənfi rəy yaratmağa yönəlmiş bu kimi hallara qarşı sayıqlığımızı daha da artırmalıyıq.***

"Unikal" xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyinin İcraçı Direktoru Əhməd İsmayılov Bərabər seçkiqabağı təşviqat imkanları və media subyektlərinin Milli Məclisə seçkilərdə fəaliyyətinin əsaslarına həsr olunan müşavirədə çıxışı zamanı deyib.

O qeyd edib ki, ictimai rəyi çaşdırmağa, ölkəmiz haqqında mənfi rəy yaratmağa yönəlmiş bu kimi hallara qarşı sayıqlığımızı daha da artırmalıyıq.

"Medianın İnkişafı Agentliyi qərəzli və sistemli şəkildə ölkəmizə qarşı yönəlmiş feyk xəbərlərin vaxtında, operativ qaydada aşkarlanıb ifşa olunması üçün digər müvafiq dövlət qurumları ilə sistemli iş aparmaqdadır. Bu qəbildən olan təhdidlərin təsir dairəsinin azaldılmasında Azərbaycanın ciddi media subyektlərinin çevik dəstəyi həmişə vacibdir.

Xüsusi vurğulamaq istərdik ki, informasiya texnologiyalarının verdiyi imkanlardan yararlanaraq media etikasının tələblərini müntəzəm qaydada pozan, dəqiqləşdirilməmiş, qərəzli məlumatlar yayan dairələr ölkəmizin media ictimaiyyəti tərəfindən daim qınanılmış və informasiya mühitinin sağlamlaşdırılması, informasiya təhlükəsizliyinin təmin edilməsi istiqamətində dövlətin fəaliyyət strategiyasına dəstək nümayiş etdirilib",- deyə Ə.İsmayılov bildirib.

## BŞTİ: 49 illik körpələr evi-uşaq bağçası yenidən qurulur

***"1975-ci ildə istifadəyə verilmiş Şahin Abbasov adına körpələr evi-uşaq bağçasının uzunmüddətli istismar nəticəsində əsaslı təmirə ehtiyac yaranıb"***

Bu barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsindən bildirilib.

Qeyd edilib ki, Azərbaycanda təhsil infrastrukturunun inkişafına və təhsilalanların tədris şəraitinin yaxşılaşdırılmasına xidmət edən dövlət siyasəti sayəsində təhsil müəssisələrinin mütləq əksəriyyəti müasir tələblər səviyyəsində yenidən qurulur.

"Növbəti dövlət proqramlarında sözügedən məktəbəqədər təhsil müəssisəsində yenidənqurma işlərinin aparılmasının nəzərə alınması məqsədilə müvafiq tədbirlər görülməsi planlaşdırılır"- deyə, məlumatda qeyd edilib.

Qeyd edək ki, Xətai rayonu Babək Prospekti, 101 a ünvanında yerləşən 1975-ci ildə istifadəyə verilmiş Şahin Abbasov adına körpələr evi-uşaq bağçasının binasında təmirə ehtiyac olması ilə bağlı redaksiyamıza müraciət olunub.

27_27 IYUI-QARA.qxd 8/8/2024 11:27 PM Page 9



## Pənah Hüseyndən çağırış: Prezidentə müraciət edək!



***Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn parlament seçkilərində namizədliyini irəli sürmüş həmkarlarına çağırış edib.***

"Unikal" xəbər verir ki, onun müraciəti Prezident İlham Əliyevə müraciət etməklə bağlı olub: "Sabahdan seçkilərin təbliğat-təşviqat kampaniyasının başlanmasını nəzərə alaraq təklif edirəm ki, İTV və ya AzTV efirlərində siyasi partiyalar arasında seçki ilə bağlı debatların keçirilməsi üçün ödənişsiz efir vaxtının ayrılması ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət edək. Bunu TV idarə orqanlarının qərarı ilə də etmək olar. 2010-cu il seçkilərinin təcrübəsi göstərir ki, belə debatlar ən reytinqli verlişlər olur".

## "Pulsuz efir vaxtının həcmi həftədə 3 saatdan az olmamalıdır" - İsmət Səttarov



***"Seçkiqabağı təşviqatda ən böyük məsuliyyət ictimai yayımçının üzərinə düşür".***

"Unikal" xəbər verir ki, bunu bərabər seçkiqabağı təşviqat imkanları və media subyektlərinin Milli Məclisə seçkilərdə fəaliyyətinin əsaslarına həsr olunmuş deyib müşavirədə çıxışı zamanı Audiovizual Şuranın İsmət Səttarov deyib sədri deyib. Onun sözlərinə görə, dövlətə məxsus olan yayımçılar vasitəsilə təşviqat aparılmır: "Seçkiqabağı təşviqat üçün ayrılan pulsuz efir vaxtının ümumi həcmi həftədə 3 saatdan az olmamalıdır".

Sədr bildirib ki, özəl yayımçılar bu məsələdə sərbəstdirlər: "Onlar seçkiqabağı təbliğatla bağlı məlumatların yayımlanmasına məcbur edilə bilməzlər".

"Seçkiqabağı təşviqatda ən böyük məsuliyyət ictimai yayımçının üzərinə düşür. Dövlət büdcəsindən maliyyələşən yayımçıların hamısı ictimai yayımçı funksiyası daşısa da, seçkiqabağı təşviqat məhz qanunla ictimai yayımçı kimi tanınan İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən həyata keçirilməlidir. Dövlətə məxsus yayımçılar vasitəsilə seçkiqabağı təşviqat aparılmır" - deyən sədrin sözlərinə görə, qeydə alınmış bütün namizədlər üçün ödəniş həcmi və şərtləri eyni olmalıdır.

## MSK sədri: Erməni əsilli vətəndaşlarımız seçkidə iştirak edə bilərlər



***"Prezident seçkilərində ATƏT-in missiyası başda olmaqla, bütün beynəlxalq qurumlardan təkidlə xahiş edirdim ki, azad edilmiş ərazilərdəki seçki məntəqələrinə getsinlər".***

Bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib.

O bildirib ki, Xankəndi şəhərində də seçki məntəqəsi yaradılıb. "Biz orada gözəl məntəqələr yaratmışıq. Biz yenə də orada yaşayan erməni əsilli vətəndaşlarımıza fərq qoymuruq, seçkidə iştirak edə bilərlər. İlk Milli Məclis seçkiləridir ki, biz onu Zəfər seçkiləri də adlandıra bilərik. Növbəti dəfə Azərbaycanın bütün suveren ərazisində seçki məntəqələrində səsvermə keçirəcəyik. Azad edilmiş ərazilərdə 55 daimi seçki məntəqəsi var, əlavə 5 günlük səyyar seçki məntəqələri yaradacağıq", - MSK sədri qeyd edib.

# Həbsdən qorxmayan məmurlar...

## Korrupsionerlər, rüşvətxorlar qandallanır, lakin niyə hələ də büdcəyə tamah salan vəzifə sahibləri var? - Bir sualın üç ilginc cavabı!

***2024-cü ilin birinci yarısında Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən dövlət büdcəsindən vəsait alan 48 təşkilatda nəzarət tədbirləri həyata keçirilib. Bu barədə nazirlik məlumat yayıb.***



Hesabat dövründə Xidmətin fəaliyyətinin əsas hissəsini Azərbaycan Respublikası Baş Prokurorluğundan daxil olmuş məktub və qərarların icrası ilə əlaqədar nəzarət tədbirlərinin aparılması təşkil edib. Belə ki, Prokurorluq orqanlarının məktublarına və qərarlarına əsasən 23 təşkilatda yoxlamalar aparılıb, bu yoxlamalarla 1990,8 min manat məbləğində artıq və əsassız ödənişlər aşkar edilib, yoxlama materialları nöqsanlara hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə prokurorluq orqanlarına göndərilib.

İş planına əsasən isə, Xidmət tərəfindən 2024-cü ilin birinci yarısında 21 təşkilatda aparılmış yoxlamalarla 1106,8 min manat məbləğində artıq və əsassız ödənişlər aşkar edilmiş və bu məbləğin təqsirkar şəxslər tərəfindən bərpası təmin edilib.

Bundan başqa, Xidmət tərəfindən vətəndaş müraciətlərinə əsasən 4 təşkilatda müraciətlərdə göstərilənlər yoxlanılıb, cəmi 4,4 min manat məbləğində artıq və əsassız ödənişlərə yol verildiyi aşkar olunub və yoxlamalarla aşkar edilmiş nöqsanlara hüquqi qiymət verilməsi üçün yoxlamaların nəticələri üzrə tərtib edilmiş sənədlər Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib.

Yoxlamalar zamanı nəzarət obyektlərində, yoxlama materialları hüquqi qiymət verilməsi üçün prokurorluq və hüquq mühafizə orqanlarına göndərilmiş nəzarət obyektləri istisna olmaqla, nöqsanlara yol vermiş vəzifəli şəxslər barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 410.1 və 410.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar törətdiklərinə görə 27 nəfər vəzifəli şəxsə 26,8 min manat məbləğində cərimələr tətbiq edilmiş və həmin cərimələrin dövlət büdcəsinə ödənilməsi təmin edilib.

Xidmət tərəfindən hesabat dövründə aparılmış nəzarət tədbirləri nəticəsində aşkar olunmuş nöqsanların aradan qaldırılması və belə nöqsanlara digər təşkilatlarda yol verilməsinin qarşısının alınması məqsədilə, habelə nöqsanlara yol verilməsində təqsiri olan vəzifəli şəxslər barəsində səlahiyyətləri daxilində tədbirlər görülməsi üçün həmin təşkilatların tabe olduqları mərkəzi icra hakimiyyəti və müvafiq yerli icra hakimiyyəti orqanlarına məktublar göndərilib, müvafiq tövsiyələr verilib.

Açıq demək lazımdır ki, 2024-cü ilin təkcə ilk yarısında, üstəlik, yalnız 48 qurumda milyonlarla manatlıq əsassız ödəniş aşkarlanması, bir növ, korrupsiyaya yol verilməsi düşündürücü faktdır. Ən azından ona görə ki, son 5 ildə Azərbaycanda sabiq nazir, nazir müavinləri və icra başçıları daxil olmaqla çox sayda yüksək vəzifəli şəxs dövlət vəsaitlərinin talan edilməsi faktlarına görə dəmir barmaqlıqlar ardına atılıb. Lakin görünən odur ki, bir sıra məmurlar hələ də "gözü çıxan qardaşlarından" dərs almayıblar və büdcə pullarını istədikləri kimi xərcləməyə davam edirlər.

Bəs buna səbəb nədir?

Ekspertlər bu suala cavab olaraq bir neçə nüansa diqqət çəkirlər. Əvvəla hesab edilir ki, yeyinti və mənimsəmə səbəbindən həbs edilən məmurlara verilən cəzalar yetərincə ağır deyil. Digər tərəfdən, əksər məmurlar bu cəzalarını sonadək çəkmir, müəyyən müddətdən sonra azadlığa buraxılırlar. Hətta bəziləri müsadirə olunan əmlaklarını belə geri qaytarmağa nail olurlar.

İkincisi, həbsə atılan iri məmurların vəzifədən istifadə edib topladıqları sərvətin bir hissəsini həbsxanada geninə-boluna xərclədikləri, hər cür şəraiti olan kameralarda saxlanıldıqları barədə iddialar var. Deyilənlərə görə, onlar üçün buradan hətta bizneslərini idarə etmək belə o qədər çətin deyil. Yəni ağlasığmaz üsullarla dövlət əmlakını talayan cinayətkar məmurların həbsdən sonra da həyatında çox şey dəyişmir.Elə bu səbəbdən bir çox ekspertlər korrupsiyaya görə dəmir barmaqlıqlar ardına atılan vəzifəli şəxslərin yalnız çox ağır cəza alması yox, həm də sərt penitensiar şəraitdə saxlanılmasını vacib sayırlar.

Üçüncüsü, belə hesab olunur ki, dövlət büdcəsinə tamah salmağı özünə rəva görən hər hansı məmur deməli utanmaq hissini itirib, əks təqdirdə xalqın pullarını öz cibinə axıtmağı heç vaxt özünə yaraşdırmaz. Utanmaq hissindən məhrum olmuş məmuru isə nə cəmiyyət qarşısında rüsvay olmaq narahat edir, nə tərcümeyi-halının ləkələnməsi, nə də adının tarixə korrupsioner kimi düşməsi... Beləlari üçün qazandığı böyük sərvətin müqabilində gedib 3-5 il həbs həyatı yaşamaq, hətta büdcə pullarını talamaq, vətəndaşdan rüşvət almaq yolu ilə qazandığı fantastik varidatın bir hissəsini itirmək böyük dərd deyil.

Əlbəttə, korrupsioner və rüşvətxor məmurların öz rəzil əməllərinə görə cəzalandırılması, qandallanması davam etməlidir, lakin təcrübə göstərir ki, proses bununla bitməməlidir; məmur həbslərinin effektiv olması üçün yuxarıda sadaldığımız üç nüans da diqqətdən qaçmamalıdır.

***Toğrul Əliyev***

# Kamran Əliyev Yasamal rayonunda vətəndaşları qəbul edəcək

Prezident Ilham Əliyevin tapşırığı və tövsiyələrinə uyğun olaraq vətəndaş məmnunluğunun və hüquqlarının qorunmasının təmin edilməsi, həmçinin bu sahədə səmərəliliyin artırılması məqsədilə Baş prokuror Kamran Əliyev avqustun 13-də saat 10:00-da Yasamal rayon prokurorluğunun inzibati binasında rayonun hüquq-mühafizə orqanlarının icraatında olan cinayət işləri və materiallar üzrə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinə aid məsələlərlə bağlı konkret müraciət və ya şikayəti olan vətəndaşların qəbulunu keçirəcək.

Bu barədə Baş Prokurorluqdan bildirilib. "Vətəndaşlar qəbulla bağlı Yasamal rayon prokurorluğuna yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin (012) 361-14-07 nömrəli və Bakı şəhər prokurorluğunun (012) 361-02-44 nömrəli telefonları, contact@prosecutor.gov.az elektron poçt ünvanı, eləcə də prokurorluğun sosial şəbəkələrdəki səhifələri (Instagram, Facebook, X) vasitəsilə də qəbula yazıla bilərlər", - məlumatda deyilir.

27_27 IYUl-QARA.qxd 8/8/2024 11:27 PM Page 10



# İşdən çıxarılan icra başçısının "topdağıtmaz" sərvəti ortaya çıxdı

Ağdaşda, Qəbələdə, Bakıda villalar, mənzillər, restoranlar, karxanalar, balıq gölləri, camış ferması, fındıq bağları, Türkiyədə ev və hotel, İngiltərədə mülk... - Tofiq İbrahimov "möcüzəsi"!

***Prezidentin Sərəncamı ilə avqustun 7-də Tofiq İbrahimov Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad olunub.***

70 yaşlı İbrahimov bu rayona 12 il idi ki, rəhbərlik edirdi. O, 2004-2010-cu illərdə Qəbələnin, 2010-2012-ci illərdə isə Lənkəranın icra başçısı işləyib.

Bir müddət öncə - iyulun 10-da Unikal.org saytı Tofiq İbrahimovun səhhətində problem yarandığı və iki aydır ki, işə çıxmadığı barədə xəbər yaymışdı. "Hazırda Tofiq İbrahimovu onun birinci müavini İsmayıl Yusifzadə əvəz edir. Onun nə vaxt işinə qayıdacağı bəlli deyil" - xəbərdə deyilirdi.

bir çox məsələlərdə ittiham olunub.

2019-cu ildə çox sayda Ağdaş sakini (Əliyev Fazil Sabir oğlu, Qarayev Vüqar Tələt oğlu, Bəxtiyarov Elşən Nemət oğlu, Quliyeva Bahar Nəsib qızı, Kamilov Böyükağa Bilal oğlu və s.) ölkə mediasına müraciətlərində İbrahimovun varidatının bir qismini belə sıralayıblar: Ağdaşın Dəhnə kəndində 2000 başlıq camış ferması və 200 hektar torpaq sahəsi; həmin kənddə 10 hektar meyvə bağı; Şor Dəhnə kəndində 31 hektar meyvə bağı; Şəmsabad kəndində 200 hektar yonca sahəsi; Tofiqi kəndində 250 hektar arpa sahəsi, balıq gölləri; Mürsəl kəndində 200 hektar çəltik sahəsi; Türyançayın Ağdaş ərazindən keçən hissəsində 4 yerdə daş-qum-çınqıl karxanası; Zeynəddin kəndində hər həftənin 6-cı günləri işləyən mal bazarı; rayon mərkəzində 2 yerdə böyük tikinti materialları ticarət mərkəzi, 80 ədəd böyük yük avtomobilləri; Ağdaş şəhərində 2 yerdə möhtəşəm villa.

dardır, yoxsa Ağdaşda Tofiq müəllimin fəaliyyəti (daha dəqiq desək, fəaliyyətsizliyi!) ilə bağlı ciddi narazılıqlardan və "topdağıtmaz" sərvət sahibi olmasına dair ard-arası kəsilməyən iddialardan qaynaqlanır? Suala konkret cavab vermək çətindir, lakin növbədənkənar parlament seçkilərinə az zaman qaldığı bir vaxtda İbrahimovun postundan kənarlaşdırılması belə bir qərar üçün ortada ciddi səbəbin, yaxud səbəblərin olduğunu göstərir.

Yeri gəlmişkən, bir müddət əvvəl sentyabrın 1-nə - növbədənkənar parlament seçkilərinə kimi icra başçılarının dəyişdirilməsi ilə bağlı qərarın təxirə salınmasına dair məlumat yayılmışdı. Bildirilirdi ki, ölkə kifayət qədər həssas siyasi kampaniyanın ərəfəsində olduğu üçün yerli icra strukturlarına rəhbərlik edən şəxslərin dəyişdirilməsi məqbul sayılmır. Bu səbəbdən də istefaya göndəriləcəyi dəqiqləşən 10-a yaxın icra başçısının ən azı sentyabrın sonuna kimi vəzifəsini qoruya biləcəyi iddia olunurdu. Lakin Tofiq İbrahimovla bağlı qərar bəzi icra başçılarının gələcəyi ilə bağlı qərara yenidən baxıldığını göstərir. Hətta "Yeni Sabah"ın bununla bağlı əldə etdiyi xəbərdə ən qısa vaxtda 6 icra başçısının məcburi "istirahətə" göndəriləcəyi bildirilib. Onların arasında Zərdab rayon icra hakimiyyətinin başçısı Mərdan Camalovun, Qobustan rayon icra hakimiyyətinin başçısı Adil Məmmədovun da adları var. İddia edilir ki, bu icra başçılarının işdən azad edilməsi ilə bağlı sərəncamlar qısa ara ilə sentyabrın sonuna kimi elan olunacaq.



İbrahimovun qəfil karyera yüksəlişi 2004-cü ildə başlayıb - o, Qəbələyə icra başçısı təyin olunub. Bəzi iddialara görə, bu, Tofiq müəllimin həmin vaxt adıçəkilən rayonu kurasiya edən Fövqəladə Hallar naziri Kəmaləddin Heydərovla qohumluq əlaqələrindən qaynaqlanırdı.

Sabiq başçının tərcümeyihalında başqa bir diqqətçəkən məqam isə karyera yüksəlişindən az əvvəl Təfəkkür Universitetini bitirməsidir. Hələ uzaq 1975-ci ildə Azərbaycan Dövlət Universitetini (Bakı Dövlət Universiteti) bitirmiş İbrahimovun onillər sonra ikinci ali təhsilə nəyə görə ehtiyac duyduğu, üstəlik, niyə bunun üçün Azərbaycanda xoşagəlməz reputasiyaya malik Təfəkkür Universitetini seçdiyi qaranlıq qalır. Sabiq başçının adı xüsusilə Qəbələ və Ağdaşa rəhbərlik etdiyi dövrdə bir sıra qalmaqallı xəbərlərdə, saysız-hesabsız vətəndaş şikayətlərində hallanıb. O, yerli əhalinin problemlərinə laqeyd münasibətdən, sahibkarların incidilməsindən tutmuş özünə misli görünməyən həddə sərvət toplamağadək

Bundan başqa, sabiq başçının paytaxt Bakının müxtəlif yerlərində 21 villa və mənzilinin, Qəbələdə 3 mülkünün, 1 şadlıq evinin, 3 restoranının, 1 yanacaqdoldurma məntəqəsinin, 2 istirahət güşəsinin, ümumilikdə 100 hektar fındıq bağlarının olduğu deyilir. Onun Londonda övladlarının adına sənədləşdirilmiş mülklərinin, Türkiyədə hotel və mənzillərinin olduğuna dair də iddialar var.

T.İbrahimov özü barəsindəki bu iddiaların heç birini indiyədək təkzib etməyib.

Bəs indi onun icra başçısı vəzifəsindən kənarlaşdırılmasının səbəbi nə ola bilər? Bu həqiqətənmi sabiq başçının səhhətindəki problemlə əlaqə-

***Toğrul Əliyev***



# Bu hərbçilər işgəncə və digər cinayətlərdə ittiham olunur

***Azərbaycan Ordusunun əsgərləri Məmmədov Fərid Əjdər oğlu (23.05.2003) və Abdullayev Firdovsi Mais oğlunun (09.02.2003) 2022-ci il martın 3-də Laçın rayonu ərazisində itkin düşməsi ilə bağlı azadlıqdan məhrum edilən iki hərbçi tabeliyində olan şəxsə zor tətbiq etməkdə, işgəncə verməkdə və vəzifə səlahiyyətlərini aşmaqda ittiham olunurlar.***

Hərbi Prokurorluğun avqustun 7-də yaydığı məlumatdan aydın olur ki, Hərbi Prokurorluğun İstintaq İdarəsində istintaqı aparılmış cinayət işi üzrə Babayev Təbriz Rasim oğluna Cinayət Məcəlləsinin 329.2.1-ci, 329.2.2-ci, 329.2.6-cı və 341.3-cü maddələri, Həməşəyev Taleh Möhübbət oğluna isə Cinayət Məcəlləsinin 341.3-cü maddəsi ilə ittiham elan edilib və iş baxılması üçün Füzuli hərbi məhkəməsinə göndərilib.

Füzuli hərbi məhkəməsinin 22.09.2023-cü il tarixli hökmü ilə Təbrik Babayev və Taleh Həməşəyev onlara elan olunmuş yuxarıda qeyd edilən maddələrdə nəzərdə tutulmuş cinayət əməllərini törətməkdə təqsirli bilinərək müxtəlif müddətlərdə azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər.

Qeyd edək ki, Cinayət Məcəlləsinin 329-cu maddəsində tabelikdə olan hərbi qulluqçuya qarşı zorakı hərəkətlərə görə cəza nəzərdə tutulur.

Təbriz Babayev Cinayət Məcəlləsinin 329.2.1-ci (eyni əməllər təkrar törədildikdə), 329.2.2-ci (eyni əməllər iki və ya daha çox şəxsə qarşı törədildikdə), ən acınacaqlısı isə 329.2.6-cı maddəsi (eyni əməllər işgəncə verməklə törədildikdə) üzrə təqsirli bilinib.

Bundan başqa, ona qarşı Cinayət Məcəlləsinin 341.3-cü (Vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma) maddəsi ilə də ittiham irəli sürülüb.

Azadlıqdan məhrum edilən digər hərbçi Taleh Həməşəyev isə Cinayət Məcəlləsinin 341.3-cü (Vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma) maddəsi üzrə təqsirli bilinib.

Qeyd edək ki, Azərbaycan Ordusunun 2022-ci il martın 3-də Laçın rayonu ərazisində itkin düşmüş əsgərləri Məmmədov Fərid Əjdər oğlu (23.05.2003) və Abdullayev Firdovsi Mais oğlunun (09.02.2003) meyitlərinin qalıqları Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında təmsil olunan aidiyyəti dövlət qurumları tərəfindən aparılmış axtarış-araşdırma işləri nəticəsində 2024-cü il iyulun 3-də Kəlbəcər rayonu, İstisu qəsəbəsindəki Yüzbulaq yaylağının ərazisində aşkarlanaraq götürülüb.

Həyata keçirilmiş kompleks istintaq tədbirləri, məhkəmə-tibb və kriminalistik tədqiqatlarla müəyyən edilib ki, həmin əsgərlər 3 mart 2022-ci ildə Laçın rayonunda yüksək dağlıq və çətin relyefli ərazidə hava şəraitinin qəfil dəyişməsi və çovğun olmasından istiqaməti itirərək itkin düşüb, uzun müddət soyuq temperaturda qalmaqla donvurma səbəbindən ölüblər. Hər iki əsgər dəfn olunub(apa).

# Qruplar üzrə nə qədər plan yeri ayrılıb? - Siyahı

***Avqustun 9-da Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi başlayır.***

"Unikal"ın məlumatına görə, I ixtisas qrupunda 19990 plan yeri ayrılıb.

Bunun 13315-i Azərbaycan, 785-i isə rus bölməsi üçün nəzərdə tutulub. 5890 plan yeri isə birgə qruplara ayrılıb. I qrupda 14407 dövlət sifarişli plan yeri ayrılıb.

II qrupda 14550 plan yerindən 4390-ı dövlət sifarişlidir. III ixtisas qrupunda isə 15459 plan yeri var, onun 4318-i dövlət sifarişlidir.

IV ixtisas qrupunda 4600 plan yerindən 3135-i dövlət sifarişlidir.

27_27 IYUl-QARA.qxd 8/8/2024 11:27 PM Page 11



# Bələdiyyə büdcəsinin göstəriciləri

***2024-cü ilin yanvar-iyun aylarında bələdiyyə büdcəsinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 19,9 faiz azalaraq 96,5 min manat təşkil etmişdir.***

Bu dövrdə büdcədən 132,6 min manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 13,7 faiz çox vəsait xərclənmişdir.

Daxilolmaların 33,0 faizi torpaq vergisi, 24,2 faizi əmlak vergisi, 12,3 faizi, bələdiyyə əmlakının özgəninkiləşdirilməsindən, 29,9 faizi bələdiyyə əmlakının icarəyə və istifadəyə verilməsindən,0,2 faizi avtomobillərin dayanacaqları üçün ödənişlər, 0,4 faizi digər vergi olmayan daxilolmalar hesabına təmin edilmişdir.

*Emin Qəhrəmanov, Ucar Rayon Statistika İdarəsinin baş məsləhətçisi*

# Goranboy rayonunda Ümumi Məhsul Buraxılışı

***2024-cü ilin yanvar-iyun aylarının əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə Ümumi Məhsul Buraxılışı (ÜMB) 12,9 faiz artaraq 282858,4 min manat olmuşdur. ÜMB-nın 80,8 faizi məhsul istehsalı sahələrində, o cümlədən 6,8 faizi sənayedə, 36,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 37,6 faizi isə tikinti sahəsində yaradılmışdır.***

ÜMB-nın 19,2 faizi xidmət sahələrində, o cümlədən 1,0 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 0,4 faizi informasiya və rabitə sahəsində, 17,8 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində olmuşdur.

**Cədvəl 1**

**İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı, sabit qiymətlərlə, əvvəlki ilin müvafiq dövrünə nisbətən faizlə]**

| | 2024-cü ilin yanvar-iyun ayları | 2023-cü ilin yanvar-iyun ayları |
|---|---|---|
| Sənaye | 110,9 | 110,3 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 106,0 | 101,6 |
| Tikinti | 127,8 | 102,3 |
| Nəqliyyat və anbar təsərrüfatı | 148,7 | 96,0 |
| İnformasiya və rabitə | 138,8 | 118,8 |
| Ticarət, nəqliyyat vasitələrinin təmiri | 100,5 | 100,4 |
| **Yekun** | **112,9** | **102,3** |

**Cədvəl 2**

**İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı, min manat**

| | 2024-cü ilin yanvar-iyun ayları | 2023-cü ilin yanvar-iyun ayları |
|---|---|---|
| Sənaye | 19138,0 | 21317,5 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 103183,4 | 96106,3 |
| Tikinti | 106300,0 | 83186,7 |
| Nəqliyyat və anbar təsərrüfatı | 2791,1 | 1919,1 |
| İnformasiya və rabitə | 1166,9 | 837,6 |
| Ticarət, nəqliyyat vasitələrinin təmiri | 50279,0 | 49945,7 |
| **Yekun** | **282858,4** | **253312,9** |

**Qrafik 1**

**2024-cü ilin yanvar-iyun aylarında ümumi məhsul buraxılışının strukturu, faizlə**




*Goranboy Rayon Statistika İdarəsi*

# Məhərrəm Quliyevin başı üzərində "qara buludlar"

## Goranboyda məmur qarşıdurmasının pərdəarxası - icra başçısı rayona nəzarəti itirib?

***Yola salmaq üzrə olduğumuz həftə Goranboy Rayon İcra Hakimiyyətində məmur qarşıdurması ilə bağlı xəbərlər diqqət çəkdi. Öncə İcra Hakimiyyəti başçısının müavini Şamxal Həsənovun istefa verdiyi, ardınca isə böyük məsləhətçi, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi Nicat Məmmədov da anoloji addım atıb. Ötən ilin fevralında müavin vəzifəsinə təyin olunan Həsənovun istefa qərarı təəccüblə qarşılanıb. İddialara görə, bu addım onun icra başçısı Məhərrəm Quliyevlə aralarındakı rüşvət qalmaqalına görə atılıb.***

Həsənovun ardınca istefa verən N.Məmmədovun isə onunla yaxın dost olduğu deyilir. Müavininin istefasından sonra Məhərrəm Quliyev böyük məsləhətçinin də ərizəsinin üstünü yazaraq, işdən azad edib.

Məsələ ilə bağlı N.Məmmədov Bakupost.az -a açıqlamasında bildirib ki, başçının birinci müavini Seymur Nazarovla aralarında baş verən narazılıq, onun işinə mane olması səbəbindən bu addımı atmağa məcbur olub: "İcra başçısına ərizə yazaraq bildirmişdim ki, mənə qarşı haqsız, ədalətsiz münasibət göstərildiyi üçün vəzifə səlahiyyətlərimi faktiki olaraq yerinə yetirə bilmirəm, xahiş edirəm, tutduğum vəzifədən azad edin. Mənə işləməyə imkan vermirdi. Bu adamın səriştəsizliyi, öz işindən başqa bütün məsələlərə müdaxilə etməsi orada çalışmağımı mümkünsüz etdi. Mən başçıya bu barədə dəfələrlə bildirdim, amma o, heç bir tədbir görmədi".

N.Məmmədov işdən çıxmağı barədə özü ərizə versə də, işdən azad edilməsinin qanunsuz olduğunu bildirib: "Mən ərizə yazdım, amma başçı təsdiqləmədi. Həmin vaxt stress keçirdim, halım pisləşdi, təcili yardım gəldi və mən bülletenə çıxıb müalicəyə başladım. Başçı mən bülletendə olduğum vaxt işdən çıxarılmağım barədə əmr verib. Bu, qanunsuzdur".

N.Məmmədov hüquqlarını bərpa etmək üçün ona haqsızlıq edən şəxslərə qarşı mübarizə aparacağını bildirib.

Məsələ ilə bağlı qarşı tərəf - S.Nazarovla əlaqə saxlamaq isə mümkün olmayıb. O, iş telefonunu götürməyib, mobil telefonunu isə söndürüb.

Maraqlıdır ki, Goranboy Rayon İcra Hakimiyyəti aradan günlər keçməsinə baxmayaraq yayılan xəbərlərə reaksiya verməyib.

Rayondakı qaynaqlardan isə icra başçısı M.Quliyevin yerli məmurlar üzərində nəzarəti itirdiyi bildirilir. "Goranboyda onsuz da camaat Məhərrəm müəllimdən və kadrlarından ciddi narazıdır. Lakin elə bir vəziyyət yaranıb ki, insanlar şikayətlərini açıq şəkildə dilə gətirməkdən çəkinirlər, çünki icra başçısı belələrini ən müxtəlif formalarda cəzalandırır. Niyyəti isə odur ki, kənardan baxan görsün Goranboyda bütün işlər qaydasındadır" deyən mənbələrin bildirdiyinə görə, yerli icra hakimiyyətindəki qarşıdurma təəccüblü deyil: "Real vəziyyəti uzun müddət gizlətmək mümkün deyil. İcra hakimiyyətinin rəhbərliyini və digər vəzifəli şəxsləri camaatın problemləri düşündürmür. Goranboyda hər yerli məmurun öz marağı var, bu maraqlar zaman-zaman toqquşur, nəticədə isə ortaya bu cür qarşıdurmalar çıxır".

Qaynaqların iddiasına görə, Goranboy Rayon İcra Hakimiyyətindəki qarşıdurma Məhərrəm Quliyev üçün arzuolunmaz nəticələrə gətirib çıxara bilər: "Artıq



yerli əhali arasında onun vəzifəsindən uzaqlaşdırılacağı barədə danışılır. Sentyabrın 1-də keçiriləcək parlament seçkilərinin ardınca belə bir qərarın verilməsi Goranboyda kimsəni təəccübləndirməyəcək. Rayonda iqtisadi-sosial problemlər üst-üstə yığılıb, Məhərrəm müəllim və komandasının bu problemləri həll etmək istəyinin və bacarığının olmadığı isə aydın görünür. İş o yerə çatıb ki, camaat oturub yerli məmurların normal fəaliyyətini yox, bir-biri ilə qarşıdurmasını izləmək məcburiyyətində qalıb. Goranboyda kadr dəyişikliyinə ciddi ehtiyac olduğu artıq şübhə doğurmur".

Xatırladaq ki, hazırda 57 yaşında olan Məhərrəm Quliyev 2011-ci ildə Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. 8 il bu vəzifədə çalışıb. 2019-cu ildə isə Goranboy Rayon İcra Hakimiyyətinin başçısı postuna təyinat alıb.

Bu ilin iyununda ölkə mediası Goranboy Rayon İcra Hakimiyyətinin 2023-cü ildə ümumi dəyəri 1 milyon manatdan çox olan tenderlər keçirdiyinə və həmin tenderlərin əksəriyyətində 10 manatlıq nizamnamə kapitalı olan "Göygöl Tikinti" MMC-ni qalib elan etdiyinə diqqət çəkib. Bu şirkət yerli icra hakimiyyəti ilə təxminən yarım milyonluq satınalma müqavilələri imzalayıb. Tenderlərin əksəriyyəti isə abadlıq işləri ilə bağlı olub. KİV bu abadlıq işlərinə baxmayaraq rayonun mərkəzi küçələrində belə yağış zamanı göllərin yaranmasının təəccüb doğurduğunu qeyd edir.

Goranboy Rayon İcra Hakimiyyəti isə məmurlar arasında qarşıdurmaya dair xəbərlərə səssiz qaldığı kimi tenderlərlə bağlı tənqidlərə də reaksiya verməyib.

**Toğrul Əliyev**

27_27 IYUl-QARA.qxd 8/8/2024 11:28 PM Page 12



## 5.3.9. azərbaycançılıq ideyasının təbliği

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Milli ideologiyalar xalqı yaşadan, birləşdirən əsas amillərdəndir. Uzun illərdir ki, Azərbaycan xalqı bir milli ideologiya ətrafında sıx birləşib. Bu azərbaycançılıq ideologiyasıdır. Hətta sərhədlər belə xalqımızın bu ideologiya ətrafında birləşməsinə mane ola bilmir. Dünyanın müxtəlif yerlərində yaşamalarından asılı olmayaraq xalqımız azərbaycançılıq ideyası ətrafında sıx birləşərək həmrəylik nümayiş etdirir.***

# Azərbaycançılıq ideyası xalqımızın milli birlik şüarına çevrildi

### Ceyhun Məmmədov hesab edir ki, azərbaycançılığın dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gəlməsi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır

Müstəqillik əldə etdikdən sonra xalqımızın milli ruhunda baş verən oyanış və özünüdərk dövlətimizi yad təsirlərdən qoruyan əsas qalxana çevrildi. Bu gün Azərbaycan xalqı azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək bir yumruq kimi dövlətimizə, ərazi bütövlüyümüzə, milli və mənəvi dəyərlərimizə yönəlmiş təhdidlərə layiqincə cavab verir. 44 günlük müharibədə okeanın o tayından torpaqlarımızın müdafiəsinə qoşulan həmyerlilərimiz azərbaycançılıq ideyası ətrafında bir yumruq kimi birləşdiklərini sübuta yetirdilər.



Millət vəkili Ceyhun Məmmədov da “Unikal”a müsahibəsində bildirib ki, Azərbaycan cəmiyyətinin inkişafının təməlini azərbaycançılıq məfkurəsi təşkil edir. O, bildirib ki, Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirir və azərbaycanlı anlayışının mahiyyətini müəyyən edir: ”Azərbaycançılıq dövlət müstəqilliyini və milli təhlükəsizliyin qorunmasını strateji məqsəd kimi müəyyən edən Azərbaycan xalqının vahid ideologiyasıdır. Azərbaycan xalqı həmin ideologiya ətrafında sıx birləşib və tarixin bütün dövrlərində milli və mənəvi dəyərlərini qoruyub saxlaya bilib. Azərbaycançılıq ideologiyası dövlətimiz əleyhinə yönəlmiş anti-milli qüvvələrlə mübarizədə ən güclü silahımızdır. Milli ideologiyamız ölkədə hüquqi və sosial dövlət quruculuğunun inkişafına xidmət edir. Bu xidmətdə biz də vətəndaş borcumuzu yerinə yetirməliyik. Burada Ümummilli lider Heydər Əliyevin Dünya Azərbaycanlılarının I Qurultayında səsləndirdiyi fikirlərə diqqət çəkmək yerinə düşər. Ulu öndər qeyd etmişdi ki, hər bir azərbaycanlı azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıdır”.

Deputat onu da vurğulayıb ki, Azərbaycançılıq ideologiyası dedikdə ölkə daxilində, eləcə də xaricdə yaşayan müxtəlif xalqların, millətlərin və dinlərin nümayəndələrinin bir çətir altında, vahid təfəkkür və vahid ideologiya ətrafında toplaşması başa düşülür: ”Diqqət etsək görərik ki, ölkədə xeyli sayda millətlərin nümayəndələri, fərqli dinlərə mənsub insanlar azərbaycançılıq ideologiyası ətrafında birləşiblər. Həmrəylik azərbaycançılıq təfəkkürünün formalaşması üçün vacib faktordur. Burada Azərbaycanda yaşayan xalqların adət-ənənəsi, dili, dini və mənəvi dəyərlərinin qorunması nəzərdə tutulur. Ölkədə həmin ideologiyanın qorunması və təbliği uğurla icra edilir. Əlbəttə ki, dövlət də azərbaycançılıq ideyasının geniş təbliğində maraqlıdır. Azərbaycançılığın dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gəlməsi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Həmin ideologiya Ulu öndər Heydər Əliyevin tarixi xidmətləri sayəsində müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilib. Ümummilli Lideri Heydər Əliyevin həyat tarixçəsinə nəzər saldıqda onun Azərbaycan xalqının çoxəsrlik adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin qorunub saxlanılmasında və tolerantlıq ənənələrinin möhkəmləndirilməsində müstəsna rol oynadığının şahidi oluruq. Məhz ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra ölkəmizdə dini etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin hüquqi əsaslarla tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması və dini abidələrimizin bərpası istiqamətində sistemli, ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirildi. Bütün bu addımlar strateji düşüncə və böyük uzaqgörənliklə atıldı.

Heydər Əliyev irsinə dərin ehtiram nümayiş etdirən möhtərəm Prezident İlham Əliyev də fəaliyyəti müddətində azərbaycançılıq məfkurəsinin geniş ictimai dəyər qazanmasına çalışıb, bu siyasəti böyük uğur və peşəkarlıqla davam etdirib. Sözsüz ki, dövlət azərbaycançılıq ideologiyasının ölkədə geniş təbliği üçün ciddi addımlar atır. Prezident İlham Əliyev və birinci vitse-prezident Mehriban Əliyeva öz əməlləri və fəaliyyətləri ilə bu mənada nümunəvi yanaşma sərgiləyirlər. Bu baxımdan, Ölkəmizdə azərbaycançılıq ideologiyasının uğurla həyata keçirildiyini əminliklə deyə bilərik”.

C.Məmmədovun sözlərinə görə, hər birimizin müqəddəs borcu müstəqil dövlətimizin qədrini bilmək, onu qorumaq, inkişaf etdirmək, dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə qaldırmaqdan ibarətdir: “Ulu öndər 1993-cü ilin sentyabr ayında Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşündə çıxışı zamanı “Əgər indi dövlət müstəqilliyimiz, milli azadlığımız körpə uşağın ilk addımlarına bənzəyirsə bir neçə ildən sonra dövlətimiz, ölkəmiz, xalqımız güclü, iradəli addımlarla irəliləməli, böyük inamla hərəkət etməlidir” - deyə söyləmişdir. Ümummilli liderimiz Heydər Əliyevin də qeyd etdiyi kimi, biz dərk etməliyik, anlamalıyıq ki, xoşbəxt bir mərhələyə gəlib çatmışıq, milli azadlığa nail olmuşuq, müstəqil dövlətimiz var, azad, müstəqil ölkədə yaşayırıq. Hər birimizin müqəddəs borcu müstəqil dövlətimizin qədrini bilmək, onu qorumaq, inkişaf etdirmək, dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə qaldırmaqdan ibarətdir. Ən əsas nailiyyət ondan ibarətdir ki, biz müstəqilliyimizi müdafiə etdik, qoruduq, möhkəmləndirdik, inkişaf etdirdik və müstəqilliyimizi əbədi etdik.

Qeyd edək ki, 90-cı illərin əvvəllərində Azərbaycanda cəmiyyətin bütün təbəqələrini əhatə edən siyasi pərakəndəlik və ideoloji parçalanma meyilləri müşahidə edilirdi. 1993-cü ildə Ümummilli lider Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəldikdən sonra dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar arasında ideya birliyinin yaradılması və bu ideologiyanın əsaslarının hazırlanması prosesi həyata keçirildi. Soydaşlarımız Ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürülmüş azərbaycançılıq ideologiyası ətrafında birləşməyə başladılar.

Ulu öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Seçkilərlə əlaqədar Mətbuat Şurasında “Qaynar xətt” yaradılacaq

***Parlamentə seçkilərlə əlaqədar Mətbuat Şurasında “Qaynar xətt” yaradılacaq.***

“Unikal” xəbər verir ki, bu sözləri Mətbuat Şurasının sədri Rəşad Məcid media subyektlərinin nümayəndələri üçün keçirilən müşavirədə söyləyib.

O, seçkilərdə iştirak edən namizədləri ödənişli təbliğat vasitələrindən istifadə etməyə, media subyektləri ilə əməkdaşlığa çağırıb.

## Dövlət Agentliyi: Özünü qazi kimi təqdim edən şəxs müharibə iştirakçısı deyil

***Sosial şəbəkələrdə paylaşılan videodakı Ağcabədi rayon sakini, 2004-cü il təvəllüdlü, iki ayağı olmayan, görmə məhdudiyyətli şəxs Sadıqov Hüseyn Əlağa oğlu müharibə iştirakçısı deyil.***



”Unikal” xəbər verir ki, bu barədə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyin İctimaiyyətlə Əlaqələr və daxili kommunikasiya şöbəsinin müdiri Tural Qurbanov məlumat yayıb.

O bildirib ki, sözügedən şəxsə ödənilən sosial ödənişin dayandırılması barədə qeyd edilənlər yanlışdır:

”Belə ki, Hərbi-Həkim Komissiyasının Sadıqov Hüseyn Əlağa oğlu ilə bağlı 13.09.2023-cü il tarixli xəstəlik şəhadətnaməsində əsas diaqnozunun müharibə və ya hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar deyil, hərbi xidmət dövrü ilə əlaqəli olduğu qeyd olunub. Diaqnozunda göstərilən səbəb əlaqəsinə uyğun olaraq da ona hərbi xidmət dövrü ilə əlaqədar orqanizmin funksiyalarının 100 faiz pozulmasına görə (I dərəcə) müddətsiz (ömürlük) əlillik təyinatı aparılıb. Əlilliyi təyin edildiyi vaxtdan da Hüseyn Sadıqova pensiya və təqaüd olaraq ümumilikdə aylıq 680 manat sosial ödəniş təyin edilib və həmin sosial ödənişləri hər ay almaqda davam edir”.

27_27 IYUl-QARA.qxd 8/8/2024 11:28 PM Page 13



# Mexanikləşdirilmiş bölmələrin döyüş atışlı təlimi keçirilib

***Cari ilin hazırlıq planına əsasən, Quru Qoşunlarının mexanikləşdirilmiş bölmələri ilə döyüş atışlı taktiki təlimlər keçirilir.***

Bu barədə "Unikal" Müdafiə Nazirliyindən məlumat verilib.

Ümumqoşun poliqonunda keçirilən təlimlərdə əsas diqqət ekipajların bilik və bacarıqlarının inkişaf etdirilməsinə yönəldilir.

Azərbaycan Ordusunda bölmələrin döyüş hazırlığını və şəxsi heyətin peşəkarlığını daim yüksək səviyyədə saxlamaq məqsədilə keçirilən tədbirlər davam etdirilir.

# Şəhid övladı faciəvi şəkildə vəfat etdi

***Birinci Qarabağ müharibəsi şəhidi Xəqani Aslanovun oğlu Cəsarət Aslanov faciəvi şəkildə vəfat edib.***



"Unikal"ın məlumatına görə, o, elektrik cərəyanı vurması nəticəsində dünyasını dəyişib.

Qeyd edək ki, Xəqani Aslanov 1992-ci ilin fevralın 26-sı Xocalıda qəhrəmancasına həlak olub. Onun digər iki qardaşı Hasil və Vidadi Aslanovlar isə eyni gündə, 1993-cü ilin 23 iyulunda Ağdam işğal olunduğu gün şəhid olublar.

# Ucarda məhsul bazarı statistikası

***2024-cü ilin yanvar-iyun aylarında pərakəndə ticarət şəbəkələrindən əhaliyə 115827,6 min manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 0,9 faiz çox istehlak malları satılmışdır.***

2024-cü ilin yanvar-iyun aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının həcmi artaraq 59723,0 min manat, qeyri-ərzaq mallarının həcmi artaraq 56104,6 min manat olmuşdur.

*Şakir Qasımov,*
*Ucar Rayon Statistika İdarəsinin rəis müavini*

# Əhaliyə göstərilən ödənişli xidmətlər belə olub



***2024-cü ilin yanvar-iyun aylarında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri müqayisəli qiymətlərlə 2023-cü ilin eyni dövrünə nisbətən 4,4 faiz artaraq 27032,9 min manat təşkil edib.***

Hüquqi şəxslər tərəfindən əhaliyə 6676,1 min manat, hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 20356,8 min manat xidmətlər göstərilmiş, bu da müvafiq olaraq xidmətlərin ümumi həcminin 24,7 və 75,3 faizini təşkil etmişdir.

*Cəlil Vəliməmmədov,*
*Ucar Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi*

# Rezidenturaya ixtisas seçimi başlandı



***Rezidenturaya qəbul olmaq üçün ixtisas seçimi başlanıb. Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib.***

Namizədlər müsabiqədə iştirak etmək üçün avqustun 8-dən 13-dək https://www.e-gov.az/az/services/read/3149/2?tqdk_xdm=28 internet səhifəsinə daxil olaraq ixtisas seçimi edirlər.

İxtisas seçiminə rezidenturaya qəbul imtahanındakı nəticələri Mərkəz tərəfindən müəyyən edilmiş müsabiqə şərtini ödəyən - ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında 50 və daha çox bal toplayan namizədlər buraxılırlar.

Müsabiqəyə buraxılan namizəd bitirdiyi baza ali tibb təhsili istiqamətinə uyğun ixtisasları seçir, sonra onların kodlarını öz elektron ərizəsindəki ixtisas seçimi formasına istədiyi ardıcıllıqla daxil edib təsdiqləyir. Seçilmiş ixtisasların ərizə formasında göstərilən ardıcıllığı müsabiqə zamanı əsas kimi götürülür və namizəd qəbul imtahanında topladığı bala əsasən müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilir.

Nəzərinizə çatdırırıq ki, "Rezidentura" jurnalının 3-cü nömrəsində "Namizədin elektron ərizəsi"ndə ixtisasların seçimi və təsdiqi üçün təlimat, "Namizədin elektron ərizəsi"ndə ixtisas seçimi formasının nümunəsi, rezidenturaya qəbul aparılan ixtisaslar və onların plan yerləri dərc edilib.

Rezidenturaya qəbul imtahanının II mərhələsinin (ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı) nəticələri haqqında bəzi statistik məlumatları təqdim edirik.

Avqustun 4-də keçirilən imtahanda iştirak edən 889 namizəddən 666 nəfəri müsabiqə şərtini ödəyərək (50 və daha çox bal toplayaraq) ixtisas seçiminə buraxılıb. Bu məqamda öz istəyi ilə yanaşı mövcud müsabiqə vəziyyətinin reallığını - ixtisaslar üzrə plan yerlərini, müsabiqədə iştirak edən namizədlərin topladıqları balların paylanmasını diqqətlə araşdırmaq, eləcə də öz fərdi imtahan nəticəsinin bu sıralamadakı yerini düzgün müəyyən etmək seçimin uğurlu olmasına müsbət təsir göstərə bilər.

**Aşağıdakı cədvəllərdə istiqamətlər və ballar üzrə histoqramlarla tanış ola bilərsiniz:**

Müalicə işi, pediatriya istiqaməti (Hərbi tibb fakültəsinin məzunları nəzərə alınmamışdır)

Minimal bal : 50.000
Maksimal bal : 90.000
Namizədlərin sayı : 496
Ballar üzrə histoqram

| Bal intervalları | Namizədlərin sayı | Cəmi |
|---|---|---|
| 96 - 100 | 0 | 0 |
| 91 - 95 | 0 | 0 |
| 86 - 90 | 9 | 9 |
| 81 - 85 | 16 | 25 |
| 76 - 80 | 47 | 72 |
| 71 - 75 | 70 | 142 |
| 66 - 70 | 74 | 216 |
| 61 - 65 | 78 | 294 |
| 56 - 60 | 95 | 389 |
| 51 - 55 | 92 | 481 |
| 50 | 15 | 496 |

Stomatologiya istiqaməti

Minimal bal : 50.000
Maksimal bal : 84.000
Namizədlərin sayı : 46
Ballar üzrə histoqram

| Bal intervalları | Namizədlərin sayı | Cəmi |
|---|---|---|
| 96 - 100 | 0 | 0 |
| 91 - 95 | 0 | 0 |
| 86 - 90 | 0 | 0 |
| 81 - 85 | 3 | 3 |
| 76 - 80 | 3 | 6 |
| 71 - 75 | 6 | 12 |
| 66 - 70 | 5 | 17 |
| 61 - 65 | 11 | 28 |
| 56 - 60 | 9 | 37 |
| 51 - 55 | 8 | 45 |
| 50 | 1 | 46 |

Tibbi profilaktika istiqaməti

Minimal bal : 50.000
Maksimal bal : 87.000
Namizədlərin sayı : 62
Ballar üzrə histoqram

| Bal intervalları | Namizədlərin sayı | Cəmi |
|---|---|---|
| 96 - 100 | 0 | 0 |
| 91 - 95 | 0 | 0 |
| 86 - 90 | 1 | 1 |
| 81 - 85 | 3 | 4 |
| 76 - 80 | 7 | 11 |
| 71 - 75 | 7 | 18 |
| 66 - 70 | 14 | 32 |
| 61 - 65 | 7 | 39 |
| 56 - 60 | 11 | 50 |
| 51 - 55 | 10 | 60 |
| 50 | 2 | 62 |

# 2024-cü ilin I rübündə Abşeron rayonunun "Sosial-iqtisadi inkişafı" göstəriciləri

***Artıq iqtisadi inkişafının sürətli mərhələsini yaşayan ölkəmiz dünya ölkələri arasında öz sözünü deyən, ölkələrin sıx iqtisadi və siyasi əməkdaşlığına mühüm əhəmiyyət verdiyi dövlətlərdən birinə çevrilmişdir. Bu iqtisadi, sosial gücü özündə saxlamaq və daha da inkişaf etdirmək üçün dövlət başçısı ölkənin bütün regionlarında iqtisadiyyatın çoxsahəli inkişafına xüsusi diqqət yetirir.***

İqtisadiyyatımızın inkişafında Abşeron rayonu da əhəmiyyətli inkişaf potensialına malikdir. Belə ki, rayonda fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən ilin ilk altı ayı ərzində 445.7 milyon manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Sənayenin inkişafında qeyri-dövlət sektorunun fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Qeyri-dövlət subyektləri tərəfindən hesabat dövrü ərzində 395.8 milyon manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da ümumi məhsulun 88.8 faizi qədərdir.

Rayonun sosial-iqtisadi infrastruktur sahələrindən biri olan nəqliyyat sektoru da cəmiyyətin inkişafında mühüm rol oynayır. Dövr ərzində fiziki şəxslər tərəfindən yük və sərnişin daşınmasından əldə olunan gəlir 20.0 milyon manat olmuşdur.

Hesabatların təhlilindən məlum olur ki, rayonun iqtisadi inkişafında rabitə və informasiya sahəsinin də əhəmiyyətli yeri var. Belə ki, hesabat dövründə müəssisə və təşkilatlara, həmçinin əhaliyə faktiki qiymətlərlə 13.5 milyon manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 13.3 faiz çox rabitə xidməti göstərilmişdir. Əldə olunan gəlirin 56.4 faizi qeyri-dövlət sektorunun payına düşür.

İlin birinci yarımilində rayonda 83.4 milyon manatlıq investisiya qoyuluşu olmuşdur ki, bu investisiyanın 79.3 milyon manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir.

Cari dövr ərzində əhaliyə pərakəndə ticarət və iaşə şəbəkələrindən 691.3 milyon manata bərabər istehlak malları satılmış və iaşə xidmətləri göstərilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə 2.9 faiz çoxdur. Əhaliyə göstərilən ödənişli xidmətin dəyəri isə 74.2 milyon manat olmuş, bunun da 24.8 milyon manatı dövlət, 49.4 milyon manatı isə qeyri-dövlət mülkiyyətinə məxsus təşkilatlar tərəfindən əldə edilmişdir.

2024-sü ilin məhsulu üçün rayonda səmi 1358,0 hektar sahədə payızlıq və yazlıq əkin aparılmışdır ki, bunun da 499,5 hektarı dənli bitkilər, ondan 368,3 hektarı arpa, 131,2 hektarı isə buğdadır.

Rayonun kənd təsərrüfatı müəssisələrində, əhali və kəndli fermer təsərrüfatlarında cari il iyul ayının 1-i vəziyyətinə 20899 baş iribuynuzlu mal-qara, o cümlədən 12898 baş inək və camış, 85279 baş isə qoyun və keçi mövcud olmuşdur. Təqdim olunan statistik məlumatlara və müvafiq hesablamalara görə diri çəkidə 3592,0 ton ət, 20803 ton süd istehsal edilmişdir.

2024-cü il iyun ayının 1-i vəziyyətinə Abşeron rayonunda iqtisadiyyatın bütün sahələrini əhatə etməklə faktiki işləyənlərin sayı 45462 nəfər olmuş, bundan 13764 nəfəri dövlət, 31698 nəfəri isə qeyri-dövlət sektorunu əhatə etmişdir. Hesablanmış əməkhaqqı fondu 161832.9 min manat olmuşdur. Rayon üzrə bir işçiyə düşən orta aylıq əməkhaqqı 735.3 manat təşkil etmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə faktiki işləyənlərin orta sayı 9.7 faiz, orta aylıq əməkhaqqı isə 3.6 faiz artmışdır.

Rayonda sosial sahənin inkişafı da yüksək səviyyədə təmin olunur, quruculuq-abadlıq işləri davam etdirilir.

*Təvəkkül Mirzəyev,*
*Abşeron Rayon Statistika İdarəsinin rəisi*

27_27 IYUl-QARA.qxd 8/8/2024 11:28 PM Page 14



# 2024-cü ilin yanvar-iyun aylarında Ağdaş rayonunun makroiqtisadi göstəriciləri

***2024-cü ilin yanvar-iyun aylarında rayonda iqtisadiyyatın əsas sahələri üzrə 247 milyon 790,7 min manatlıq məhsul və xidmətlər istehsal olunmuşdur. Bu göstərici əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 5,5 faiz və ya 13 milyon 12,8 min manat, qiymət indeksi nəzərə alınmaqla isə 4,5 faiz və ya 10 milyon 588,3 min manat çoxdur.***

Müqayisə olunan dövrə nisbətən ümumi məhsul buraxılışı qiymət indeksi nəzərə alınmaqla tikinti-quraşdırma işləri sahəsində 2,9 dəfə və ya 14 milyon 67,4 min manat, nəqliyyat və anbar təsərrüfatı sahəsində 13,3 faiz və ya 429,5 min manat artmış, sənaye məhsulu istehsalı sahəsində 1,4 faiz və ya 706,0 min manat, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 1,6 faiz və ya 830,0 min manat, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 1,9 faiz və ya 2 milyon 283,6 min manat, informasiya və rabitə sahəsində isə 23,8 faiz və ya 89,0 min manat azalmışdır.

Ümumi məhsul buraxılışının 49,0 faizi kənd təsərrüfatı, 20,6 faizi ticarət xidməti və nəqliyyat vasitələrinin təmiri, 20,1 faizi sənaye, 8,7 faizi tikinti, 1,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,1 faizi isə informasiya və rabitə xidmətləri sahəsində yaranmışdır.

Məhsul və xidmətlərin 77,8 faizi istehsal sahələrinin, 22,2 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

Rayonun əsas istehsal sahəsi olan kənd təsərrüfatı müəssisələrində, fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarında 121 milyon 357,0 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da, 63 milyon 676,9 min manatı bitkiçiliyin, 57 milyon 680,1 min manatı isə heyvandarlığın payına düşmüşdür. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsulları istehsalı qiymət indeksi nəzərə alınmaqla 1,9 faiz azalmış, faktiki qiymətlərlə isə eyni olmuşdur.

Rayonun 14 sənaye müəssisəsi və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar, habelə ev təsərrüfatları tərəfindən 49 milyon 859,5 min manatlıq və ya əvvəlki ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 1,1 faiz, qiymət indeksi nəzərə alınmaqla isə 1,4 faiz az sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Bu dövrdə sənaye məhsulunun 89,6 faizi emal, 9,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,3 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. İstehsal olunmuş sənaye məhsulunun 4 milyon 934,7 min manatı və ya 9,9 faizi dövlət, 44 milyon 924,8 min manatı və ya 90,1 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür. İstehsal olunmuş sənaye məhsulunun 44 milyon 670,8 min manatı və ya 89,6 faizi hüquqi şəxslərin, 4 milyon 793,0 min manatı və ya 9,6 faizi ev təsərrüfatlarının, 395,7 min manatı və ya 0,8 faizi isə fərdi sahibkarların payına düşmüşdür.

2024-cü ilin yanvar-iyun aylarında rayonda 21 milyon 558,2 min manatlıq tikinti-quraşdırma işləri yerinə yetirilmiş, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,9 dəfə çoxdur. Mərkəzləşdirilmiş qaydada istifadə edilən investisiya hesabına görülmüş tikinti-quraşdırma işləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 88,6 dəfə artmış, yerli imkanlar hesabına görülmüş tikinti-quraşdırma işləri isə 73,1 faiz azalmışdır. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin 19 milyon 601,0 min manatı və ya 90,9 faizi dövlət, 1 milyon 957,2 min manatı və ya 9,1 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşmüşdür.

Rayonda ticarət, nəqliyyat vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatı və informasiya və rabitə sahələrində 55 milyon 16,0 min manatlıq xidmətlər istehsal olunmuşdur. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 0,8 faiz və ya 468,8 min manat, qiymət indeksi nəzərə alınmaqla isə 0,9 faiz və ya 489,5 min manat azdır. İstehsal olunmuş xidmətlərin 51 milyon 148,1 min manatı və ya 93,0 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində, 3 milyon 581,4 min manatı və ya 6,5 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 286,5 min manatı və ya 0,5 faizi informasiya və rabitə sahəsində olmuşdur. Ticarət şəbəkələrində əhaliyə 159 milyon 837,9 min manatlıq istehlak malları satılmış və 2023-cü ilin eyni dövrü ilə müqayisədə rayonda 1,6 faiz və ya 2 milyon 599,6 min manat az istehlak malları realizə olunmuşdur.

2024-cü ilin yanvar-iyun aylarında bütün maliyyə mənbələrindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala 26 milyon 587,3 min manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,7 dəfə çox vəsait yönəldilmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 21 milyon 558,2 min manatı və ya 81,1 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə, 5 milyon 29,1 min manatı və ya 18,9 faizi isə maşın və avadanlıqların və digər əsas vəsaitlərin alınmasına sərf olunmuşdur.




***Arif Qurbanov,***
***Ağdaş Rayon Statistika İdarəsinin rəisi***

# Şirniyyat ehtiyacını aradan qaldırmağın yolları



***Zamansız başlayan və zamanla təhlükəyə çevrilən şirniyyat yemək istəyinə qarşı necə mübarizə aparmaq lazım olduğunu bilmirsiniz? Şirniyyata olan ehtiyac bəzən hələ diaqnoz qoymadığımız şəkər xəstəliyinin ilk əlamətlərindən ola bilər.***

**"Unikal" şirniyyat ehtiyacını aradan qaldırmağın yollarını təqdim edir:**

Meyvə ilə şirinləşdirilmiş qatıq/süd istehlak edin

Şirniyyat ehtiyacınız varsa, mövsümi meyvələr ilə dadlandırılmış bir kasa qatıq istehlak edin. Bu qarışım həm şirniyyat ehtiyacınızı aradan qaldıracaq, həm də qan şəkərinizin birdən-birə yüksəlməsinin qarşısını alacaq və həzm müddətlərini uzatmaqla daha tez aclıq hiss etmənizin qarşısını alacaq.

**Qəlyanaltı yeməyə əmin olun**

Uzun müddət ac qaldıqda qan şəkəri düşür və bu, bədəndə şirinlik ehtiyacı kimi qəbul edilə bilər. Buna görə də qida rasionunuza ara qidalar əlavə etməklə qan şəkərinizi balanslaşdıra və şirin ehtiyacınızın qarşısını ala bilərsiniz.

**Kifayət qədər su içməyi unutmayın**

Susuzluq və aclıq beyində eyni yerdən idarə olunur. Bu səbəbdən bəzən susuzluq hissi aclıq və ya şirin ehtiyacı ilə qarışdırıla bilər. Kifayət qədər su istehlak etmək, lazımsız kalori qəbulunun qarşısını almağın ən sağlam yoludur.

**Sadə karbohidratlardan uzaq durun**

Aşağı glisemik indekslərə malik ağ un və şəkər kimi sadə karbohidratlar yerinə kompleks karbohidratları rasyonunuza daxil etməklə qan şəkərinizin daha yavaş yüksəlməsini dəstəkləyə bilərsiniz. Tam buğda, tərəvəz və paxlalılar kimi kompleks karbohidratlar qan şəkərinizin daha yavaş yüksəlməsinə kömək edir ki, bu da şirinlik ehtiyacınızın azalmasına səbəb olur.

**Kifayət qədər və keyfiyyətli yuxu alın**

Araşdırmalar göstərir ki, 5 saat və ya daha az yatmaq şəkərli içki istehlakı ilə əlaqələndirilir. Çünki yuxusuz qaldığımız zaman gündəlik enerjimiz azalır və onu doldurmaq üçün davamlı olaraq atışdırmalıqlar qəbul edirik. "Şirniyyat və ya qəlyanaltı yemək səhvinə düşməmək üçün kifayət qədər yatdığınızdan və kifayət qədər keyfiyyətli yuxu aldığınızdan əmin olun.

**Yüksək lifli qidalar istehlak edin**

Qidaların tərkibində olan lif mədənin boşalmasını gecikdirir və daha uzun müddət tox qalmağa kömək edir. Onlar həm də qan şəkərinin qəfil artmasının qarşısını alır, onu eyni səviyyədə saxlayır və şirniyyat ehtiyacının qarşısını alır.

**Çay və qəhvə əvəzinə bitki çayına üstünlük verin**

Çay və qəhvə kimi vərdişlər bizə şirniyyat ehtiyacımızı xatırladır. Əgər mədə, bağırsaq, böyrək və ya təzyiq xəstəliyiniz yoxdursa, çay və qəhvə yerinə gündə bir stəkan bitki çayı (darçın qabığı və mixək əlavə etməklə) qəbul etməklə şirniyyat ehtiyacınızı basdıra bilərsiniz.

**Mütəmadi olaraq sağlamlığınızı yoxlayın**

Şirniyyat ehtiyacı bəzən hələ diaqnoz qoymadığımız diabetin ilkin əlaməti ola bilər. Buna görə mütəmadi olaraq qan testlərinin olması bədənimizdəki xəstəlikləri öyrənmək və ya çatışmazlığımız olan vitamin və mineralları aşkar etmək baxımından çox önəmlidir.

***Zərifə Nağıyeva***

# Çimərliklərdə hava necə olacaq?

***Avqustun 8-də Abşeron çimərliklərində gözlənilən hava şəraiti açıqlanıb.***

Milli Hidrometeorologiya Xidmətindən "Unikal"a verilən məlumata görə, arabir güclənən şimal-qərb küləyi axşam mülayimləşəcək.

Dəniz suyunun temperaturu:

Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26º isti,

Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27º isti olacaq.

27_27 IYUl-QARA.qxd 8/8/2024 11:28 PM Page 15



# "Ukrayna bundan dərs çıxarmalıdır" - Medvedev



***Ukrayna Silahlı Qüvvələrinin Kursk vilayətinin sərhəddindəki hərəkətlərindən dərs çıxarmaq və düşməni amansızcasına məğlub etmək lazımdır.***

”Unikal” xəbər verir ki, bu fikri Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev özünün ”Telegram” kanalında bildirib.

”Baş verənlərdən ciddi dərs çıxarmaq və Baş Qərargah rəisi Valeri Gerasimovun Ali Baş Komandana söz verdiyini yerinə yetirmək lazımdır - düşməni amansızcasına məğlub edib məhv etmək”, - siyasətçi yazıb.

Medvedev vurğulayıb ki, “Ukronazilərin Kursk vilayətində terror əməliyyatının səbəbləri və məqsədləri artıq analitikada ətraflı və obyektiv şəkildə öz əksini tapıb”.

Qeyd edək ki, ötən gün Ukrayna Silahlı Qüvvələri Rusiyanın Kursk vilayətinə hücum edib. İnsident nəticəsində 5 nəfər ölüb, 30-a yaxın insan yaralanıb.

# Zelenskinin ofisi Kursk vilayətinə hücumu belə şərh etdi



***”Ukrayna Silahlı Qüvvələrinin Rusiyanın Kursk bölgəsinə hücumu potensial sülh danışıqlarına müsbət təsir göstərəcək və Kiyevin mövqeyini gücləndirəcək”.***

”Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, bunu Ukrayna prezidentinin aparat rəhbərinin müşaviri Mixail Podolyak Ukrayna telemarafonunun efirində bildirib.

”Rusiya Federasiyasının bu və ya digər sərhəd bölgəsində baş verənlər sosial təbəqələrə psixoloji təsir göstərəcəkmi? Onları qorxutacaqmı? Bəli. Onlar qorxudan başqa bir şeyə reaksiya verirlərmi? Xeyr”, - Podolyak deyib.

O hesab edir ki, Moskva istənilən kompromisləri zəiflik kimi qəbul edir. Onun sözlərinə görə, Ukraynanın danışıqlarda mövqeyini gücləndirmək ”müharibə xərclərini artırmaqla” əldə edilməlidir.

Avqustun 6-da səhər saatlarında Ukrayna Silahlı Qüvvələrinin əsgərləri sərhədi keçərək Kursk vilayəti ərazisinə daxil olmağa cəhd ediblər. Rusiya Müdafiə Nazirliyi 300-ə yaxın ukraynalı əsgərin Oleşnya və Nikolaevo-Daryino yaşayış məntəqələri yaxınlığında rus qoşunlarının mövqelərinə hücum etdiyini bildirib. Bunun üçün onlar 11 tank və 20-dən çox zirehli döyüş maşınından istifadə ediblər.

# Daha bir HƏMAS üzvü öldürüldü

***İsrail ordusu Qəzza zolağında HƏMAS-ın yüksək rütbəli üzvlərindən birini öldürüb.***

”Unikal” xəbər verir ki, bu barədə İsrail ordusu ”Telegram” kanalında məlumat paylaşıb.

”İsrail Müdafiə Qüvvələri (IDF) və Baş Təhlükəsizlik Xidməti (Şin Bet) Yəhudeya və Samariyada terror aktları törətmiş HƏMAS üzvünü Qəzza zolağında məhv edib”,- məlumatda qeyd olunub.

# Suriyada bombalı terror aktı oldu - Ölənlər var

***Suriyanın Azez rayonunda bomba yüklü avtomobil partladılıb.***

”Unikal” xəbər verir ki, partlayış nəticəsində 9 nəfər həyatını itirib, 13 nəfər yaralanıb.

Hücuma görə məsuliyyəti hələlik üzərinə götürən olmasa da, hücumun arxasında terror təşkilatı PKK/YPG-nin olduğu düşünülür.

Səhifəni Gülayə Mecid hazırladı

# Rusiya Ermənistan ilə bağlı ABŞ-yə xəbərdarlıq etdi

***”ABŞ-nin Ermənistanın Rusiyadan uzaqlaşmaq istəməsi ilə bağlı bəyanatları əsassızdır”.***

”Unikal” xəbər verir ki, bunu ”RİA Novosti” agentliyinə müsahibəsində Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib.

İyulun 30-da ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O’Brayen bəyan edib ki, ABŞ Ermənistanın Rusiya ilə münasibətlərdən əl çəkməsinə şərait yaratmağa çalışır. Onun sözlərinə görə, ermənilərin əhəmiyyətli hissəsi Rusiya Federasiyasından uzaqlaşmaq istəyir.



Zaxarovanın sözlərinə görə, O’Brayenin sözləri ABŞ-yə xas olan geosiyasi mühəndisliyin başqa bir nümunəsidir, hər kəsin gözü qarşısında Vaşinqtona lazım olan, reallıqla heç bir əlaqəsi olmayan "reallığı” uydurmaq istəyidir.

Diplomat vurğulayıb ki, O’Brayen və digər Qərb nümayəndələri xatırlamalıdırlar ki, Rusiya ilə Ermənistan arasında əsrlər boyu formalaşmış əlaqələr bütün güc sınaqlarına tab gətirib.

Zaxarova qeyd edib ki, Rusiya tarix boyu dəfələrlə ”erməni xalqına dəstək olub” və bunu gələcəkdə də davam etdirmək niyyətindədir.

# "Ərazi bütövlüyünü yalnız sülh ilə təmin edə bilərik" - Kobaxidze

***Gürcüstanın baş naziri İrakli Kobaxidze ölkəsinin ərazi bütövlüyünün yalnız sülh üsulları ilə təmin ediləcəyini bildirib.***

”Unikal” xəbər verir ki, Kobaxidze Cənubi Osetiya müharibəsi kimi tanınan Rusiya-Gürcüstan müharibəsinin 16-cı ildönümü münasibətilə paytaxt Tbilisidə ”Qardaşlıq qəbiristanlığı”na baş çəkib.

Kobaxidze buradakı çıxışında 2008-ci ildə müharibədə həyatını itirən gürcü əsgərlərinin xatirəsini yad etdiklərini bildirərək, ”Bu gün avqust döyüşlərində həyatını itirən qəhrəmanları yad edirik. Hamımız bu ən faciəli günləri xatırlayırıq, amma Bu günlər də ordumuzun göstərdiyi böyük qəhrəmanlığa görə bizləri qürurlandırır və təbii ki, onlara hörmət etməliyik”,- ifadə edib.

Müharibədə həyatını itirən gürcü əsgərlərinin öz ölkələrinin ərazi bütövlüyünü təmin etmək üçün döyüşdüklərini qeyd edən Kobaxidze “Gürcüstanın ərazi bütövlüyü mütləq sülh üsulları ilə əldə olunacaq” deyib.

Qeyd edək ki, Gürcüstan ordusu ilə Rusiyanın dəstəklədiyi abxaziya separatçıları arasında 1992-1993-cü illərdə 13 ay müharibə olub.

2008-ci ildə Rusiya ilə Gürcüstan arasında Cənubi Osetiya müharibəsi kimi tanınan münaqişələr başlayıb və müharibədən sonra Rusiyanın dəstəklədiyi Abxaziya və Cənubi Osetiya regionları Gürcüstandan birtərəfli qaydada müstəqilliklərini elan ediblər.



Rusiya bu iki regionun qondarma müstəqilliyini 2008-ci ildə tanıyıb və Gürcüstan buna cavab olaraq Rusiya ilə diplomatik münasibətləri kəsib.

İki ölkə arasında diplomatik münasibətlər kəsildikdən sonra İsveçrə tərəflər arasında vasitəçilik rolunu öz üzərinə götürüb.

# Rusiyada general həbs edildi

***Rusiya Müdafiə Nazirliyinin İnnovativ İnkişaf Baş İdarəsinin rəis müavini, general-mayor Vladimir Şesterov həbs olunub.***

”Unikal” xəbər verir ki, bu barədə TASS məlumat yayıb. Bildirilib ki, dövlət əmlakının və büdcə vəsaitlərinin talanmasında ittiham olunan keçmiş məmur barədə ev dustaqlığı qətimkan tədbiri seçilib.

”Şesterov barəsində sentyabrın 21-dək ev dustaqlığı qətimkan tədbiri seçilib”, - agentliyin həmsöhbəti bildirib. Əvvəllər məhkəmə Şesterovun səhhətinə görə onun barəsində həbs-qətimkan tədbiri seçə bilmirdi.



Şesterov nəzarətə götürülən ”Patriot” parkının rəhbəri Vyaçeslav Əhmədovla eyni işdə təqsirləndirilir. İstintaqın versiyasına görə, Əhmədov və Şesterov əlbir olaraq “Patriot” parkının və sərgi mərkəzinin fəaliyyətini təmin etmək üçün ayrılmış büdcə vəsaitlərini mənimsəyib.

# Türkiyə Rusiyaya qarşı sanksiyalarda iştirak edir

***”Türkiyə ABŞ-nin Rusiyaya qarşı sanksiyalarında qismən iştirak edir”.***

”Unikal” xəbər verir ki, bunu ”RİA Novosti” agentliyinə açıqlamasında türkiyəli analitik Engin Özer deyib.

”Əslində biz artıq Ankaranın anti-Rusiya sanksiyalarında “qismən” iştirak etdiyi bir prosesi yaşayırıq. Ankara administrasiyasının tətbiq etdiyi sanksiyalardan ən mühümü Türkiyənin dövlət banklarının Rusiya ilə pul əməliyyatlarını böyük ölçüdə dayandırmasıdır”, - Özer bildirib. Onun sözlərinə görə, bu, Türkiyədə keçirilən prezident seçkilərindən sonra Ərdoğanın Vaşinqtonla münasibətlərin normallaşdırılması kursunu müəyyənləşdirməsi ilə bağlıdır.

Ekspertin sözlərinə görə, Ərdoğan ümid edir ki, Donald Tramp Ağ Evə qayıdarsa, Ukraynadakı münaqişəni həll edə biləcək və buna görə də Moskva ilə münasibətlərlə bağlı Türkiyəyə təzyiqlər aradan qalxacaq.

Bundan əvvəl ”Financial Times” ABŞ-nin Türkiyəni Rusiyaya texnologiya ixracına görə sanksiyalarla hədələdiyini yazmışdı. Vaşinqton Türkiyənin Rusiya Federasiyasına Qərb istehsalı olan elektronikanın tədarükü üçün əsas kanala çevrilməsindən narahatdır. Söhbət hərbi məqsədlər üçün istifadə oluna bilən prosessorlar, yaddaş kartları, gücləndiricilər və digər avadanlıqlardan gedir.

# "Neftçi" və "Qarabağ" cərimələndi

***AFFA İntizam Komitəsi "Qarabağ", "Neftçi", "Araz-Naxçıvan" və "Sumqayıt" klublarını cərimələyib.***

"Unikal" xəbər verir ki, bu barədə milli assosiasiyanın rəsmi saytı məlumat yayıb.

Naxçıvan təmsilçisi I turda "Qarabağ"a 1:4 hesabı ilə uduzduqları matçdan sonra meydana kənar şəxslərin daxil olmasına görə 800 manat ödəyəcək. Klub görüş bitdikdən sonra futbolçular avtobusa rahat daxil ola bilmədikləri üçün 500 manat cərimələnib.



Həmin qarşılaşmada ikinci sarıdan qırmızı vərəqə alan "Qarabağ"ın müdafiəçisi Elvin Cəfərquliyev bir oyunluq cəza alıb, Ağdam klubuna 500 manat cərimə tətbiq edilib.

"Neftçi" isə "Turan Tovuz"la matçda (0:0) azarkeşlərin pirotexniki vasitədən istifadəsinə görə 1500 manat ziyana düşüb.

"Sumqayıt" "Kəpəz"lə (2:0) görüşdə Peşəkar Futbol Liqasının Əsasnaməsinin tələbləri pozulduğuna görə 500, oyun günü planına riayət etməyi üçün isə 1000 manat ödəməli olacaq.

# Şəhidlərin xatirəsinə həsr olunmuş rayon birinciliyi keçirilib



***Yardımlı rayonunda Vətən, torpaq naminə canını fəda edən şəhidlərin xatirəsi həmişə əziz tutulur, böyük ehtiramla yad edilir. Dağlar diyarında bu günlər keçirilən sərbəst güləş üzrə U-15 kiçik yaşlı yeniyetmələr arasında açıq rayon birinciliyi də Vətən şəhidlərin xatirəsinə həsr olunmuşdu.***

Yardımlı Rayon İcra Hakimiyyətinin, Yardımlı İdman Kompleksinin təşkilatçılığı, Polis Şöbəsinin rəisi, polis polkovniki Rauf Babaşovun dəstəyi sayəsində Yardımlı İdman Kompleksində baş tutan yarışın açılış mərasimində əvvəlcə dövlət himni oxundu, Vətən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anıldı.

Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərovun, Polis Şöbəsinin rəisi, polis polkovniki Rauf Babaşovun, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Yardımlı rayon şöbəsinin rəisi İlqar Məmmədovun, tarix elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Musa Qasımlının, Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının vitse-prezidenti, "Olimp sport" jurnalının baş redaktoru Ramin Allahverdiyevin, şəhid valideynlərinin, müharibə veteranlarının və rayon ziyalılarının qatıldığı birincilikdə ilk söz alan rayon rəhbəri yarış iştirakçılarını salamlayaraq dedi:- Ölkəmizdə idmana böyük diqqət və qayğı göstərilir. Bu yarış də təkcə idman hadisəsi kimi deyil, həm də mənəvi əhəmiyyət kəsb edən bir tədbir kimi mühüm əhəmiyyət daşıyır. Yarışın təşkilində əsas məqsəd isə Vətənin azadlığı, xoşbəxt gələcəyimiz naminə qan tökübtarix yazan şəhidlərin əziz ruhunu yad etməkdən ibarətdir.

Professor Musa Qasımlı, yarışın təşəbbüskarı, polis polkovniki Rauf Babaşov çıxış edərək şəhidlik zirvəsinin müqəddəsliyindən danışıb və turnirin əhəmiyyətinə yüksək qiymət verməklə belə yarışların bölgə idmançılarının inkişafı üçün əhəmiyyətini xüsusi olaraq vurğuladılar. Şəhid atası Ədalət Qarayev və şəhid anası Rəsmiyə xanım öz növbəsində yarışın təşkilatçılarına minnətdarlığını bildiriblər, Vətən torpaqlarının azadlığı və dövlətimizin suverenliyi uğrunda döyüşmüş qəhrəmanların gələcək nəslə tanıdılmasında bu cür yarışların müstəsna rol oynadığını dedilər.

Çıxışlardan sonra yarışın baş hakimi, güləş üzrə beynəlxalq dərəcəli hakim, Yardımlı rayon Polis Şöbəsinin rəis müavini Tural Əliyev birinciliyə start verdi. Lənkəran, Cəlilabad, Astara, Masallı, Biləsuvar və AİJA güləş komandasını təmsil edən 100-ə yaxın idmançı qələbə uğrunda mübarizəyə başladılar. Gərgin və maraqlı keçən yarışın yekununda 10 çəki dərəcəsi üzrə ilk üç yeri tutan idmançılar diplom, medal və qiymətli hədiyyələrlə təltif edildilər.

***Zəfər Orucoğlu, AJB üzvü***




# Paralimpiya Oyunlarındakı bayraqdarlarımız müəyyənləşdi

***Azərbaycanın "Paris-2024" Yay Paralimpiya Oyunlarındakı bayraqdarları müəyyənləşib.***

"Unikal" xəbər verir ki, bu barədə Milli Paralimpiya Komitəsinin baş katibi Toğrul Rəhimov məlumat verib.

O bildirib ki, yarışların açılış mərasimində parataekvondoçu İmaməddin Xəlilov və paraatletika üzrə millinin üzvü Lamiyə Vəliyeva Fransanın paytaxtında Azərbaycan bayrağını daşıyacaq.

Qeyd edək ki, "Paris-2024" Yay Paralimpiya Oyunları avqustun 28-dən sentyabrın 8-dək keçiriləcək.

# "Neftçi" - "Sabah" oyununun vaxtı açıqlandı

***Azərbaycan Premyer Liqasında III turun oyun cədvəli müəyyənləşib.***



"Unikal" xəbər verir ki, matçların yeri və vaxtını PFL-in mətbuat xidməti açıqlayıb.

Turun qarşılaşmaları üç günü əhatə edəcək. Bütün görüşlər "CBC Sport" telekanalı vasitəsilə canlı yayımlanacaq.

**Azərbaycan Premyer Liqası**
**III tur**

16 avqust (cümə)
"Şamaxı" - "Qarabağ"
Şamaxı şəhər stadionu, 17:20
17 avqust (şənbə)
"Kəpəz" - "Turan Tovuz"
Tovuz şəhər stadionu, 18:15
"Sumqayıt" - "Səbail"
M. Hüseynzadə adına Sumqayıt şəhər stadionu, 20:30
**18 avqust (bazar)**
"Zirə" - "Araz-Naxçıvan"
Zirə İdman Kompleksinin stadionu, 18:15
"Neftçi" - "Sabah"
"Neftçi Arena", 20:30



# Miroslav Kloze Mahir Emrelini təriflədi

***Almaniyanın "Nürnberq" klubunun baş məşqçisi Miroslav Kloze Azərbaycan millisinin hücumçusu Mahir Emrelinin transferi haqqında danışıb.***

QOL,az "Bild"ə istinadən xəbər verir ki, 27 yaşlı futbolçunu tərifləyən 2-ci Bundesliqa təmsilçisinin çalışdırıcısı Emrelinin yaxşı təcrübəyə malik olduğunu bildirib: "Mahiri komandaya gətirməklə bizdə çatışmayan, bir az fərqli keyfiyyətləri olan, yaxşı bir oyunçu qazandıq. Onun yaxşı təcrübəsi var. Emreli ikinci liqanın fiziki tələbatına cavab verən möhkəmliyə malikdir. Robin Knok (digər yeni transfer - red.) kimi əla xaraktərə sahibdir. O, çox yaxşı futbolçudur. Əla zərbələri var. Topla yaxşı oynaya, qaça bilir və boşluqları hiss edir".

Qeyd edək ki, "Nürnberq" Mahir Emreli ilə 1 illik müqavilə imzalayıb.

# "Şamaxı" futbolçusunu icarəyə verdi

***"Şamaxı"nın futbolçusu Bahadur Həziyev yeni mövsümü icarə əsasında 1-ci liqa təmsilçisi "İmişli"də keçirəcək.***



"Unikal" xəbər verir ki, bu barədə əyalət klubunun mətbuat xidməti məlumat yayıb.

Qeyd edək ki, Həziyev ötən mövsüm icarə əsasında "Səbail"də çıxış edib. "Neftçi"nin yetirməsi olan Həaziyev 2021-ci ildən "Şamaxı"nın üzvüdür.

# Azərbaycan medal sıralamasında irəlilədi - Paris-2024



***Azərbaycan milli komandası Paris-2024 Yay Olimpiya Oyunlarının medal sıralamasında mövqeyini bir qədər də möhkəmləndirib.***

QOL.az xəbər verir ki, dünən daha bir medal (gümüş) qazanan Azərbaycan bundan əvvəlki günlə müqayisədə 1 pillə irəliləyərək 22-ci yerə yüksəlib.

Siyahıya isə əvvəlkitək ABŞ başçılıq edir. Birləşmiş Ştatlar artıq 94 medal qazanıb. Onlardan 27-si qızıl, 35-i gümüş, 32-si bürünc medaldır.

# Sərbəst güləşçimiz məğlub oldu

***Azərbaycanın sərbəst güləşçisi Əliabbas Rzazadə Fransanın paytaxtı Parisdə keçirilən Yay Olimpiya Oyunlarında mübarizəyə start verib.***

"Unikal" xəbər verir ki, 57 kq çəki dərəcəsində yer alan idmançı 1/8 final mərhələsində özbəkistanlı Qulomjon Abdullayevlə üz-üzə gəlib.

Rzazadə rəqibinə məğlub olub - 4:11. Abdullayev finala çıxsa, təmsilçimiz sabah təsəlliverici görüşə qatılacaq.

Qeyd edək ki, Paris-2024 avqustun 11-də başa çatacaq.